

# Stanonun Paşinyanın “avrointeqratorlar”ına reallıq dərsi

Avropa İttifaqının xarici əlaqələr üzrə mətbuat katibi Piter Stano Ermənistandakı “Avropa inteqratorlar”ının pafos közünün üstünə su səpib. O, reallığı dilə gətirərək, sabun köpüyü ritorikasından uzaq durulmasının vacibliyi üzərində dayanıb. Stano nələri deyib, bu barədə söz açacağıq. Hələlik isə Ermənistan hakimiyyətinin və onun tərəfdarlarının Avropaya inteqrasiya xüsusunda zaman-zaman səsləndirdikləri tezislərin mahiyyətinə diqqət yetirək.

(ardı 4-cü səhifədə)

# “Politico”ya ismarıc: Gələrsiz, görərsiz




Səhifə ⇨ 3

Xalq qəzeti
Xalqın qəzeti!
№ 173 (30577) 15 avqust 2024-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# AZƏRBAYCAN GÜCLÜ İDMAN DÖVLƏTİDİR



Səhifə ⇨ 2

## “Vahid tarixi-mədəni coğrafi region” ideyası və Mərkəzi Asiya ilə birlik strategiyası



**Prezident İlham Əliyevin Qazaxıstanın paytaxtı Astana şəhərində 9 avqust 2024-cü il tarixdə keçirilmiş Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirakı və çıxış etməsi müstəqil dövlətimizin türk dünyası və müsəlman aləmi ilə əlaqədar strateji xəttinin həyata keçirilməsi istiqamətində atılmış mühüm əhəmiyyətə malik olan uğurlu siyasi addımdır.**

Bu, bir az əvvəl Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Türk Dövlətləri Başçılarının Şuşa şəhərində keçirilmiş qeyri-rəsmi görüşünün məntiqi davamı olub, dövlət rəhbərimiz tərəfindən müəyyən edilmiş strateji əməkdaşlıq xəttinin daha da dərinləşdirilməsi və möhkəmləndirilməsi idi. Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə iştirakı və çıxışı Azərbaycan Respublikasının Mərkəzi Asiya və Türk dünyası ilə əlaqələrin daha da genişləndirilərək inkişaf etdirilməsi sahəsində dönməz siyasət yeritdiyinin əyani təcəssümüdür.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk dünyasına inteqrasiya, Orta dəhliz strategiyası, qarşılıqlı regional əməkdaşlıq məsələlərindən bəhs edərkən Türkiyə Cümhuriyyəti, Cənubi Qafqaz ölkələri və Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin xüsusi əhəmiyyətə malik olduğunu daim birmənalı şəkildə irəli sürmüşdür. Ona görə də ölkəmiz zamanın meydana çıxardığı hər fürsətdən səmərəli istifadə etməklə həmin strategiyanın daha da möhkəmləndirilməsi baxımından səmərəli şəkildə faydalanaraq, özünün dövlətçilik siyasətində sabit və ardıcıl mövqe tutduğunu nümayiş etdirir və bu siyasətin uğurla həyata keçirilməsinə həmin xalqların böyük gələcəyinin real təminatı kimi baxır. Bu cəhətdən dövlət rəhbərimizin Astana görüşündə iştirakı və çıxışı həmin sahədə dönmədən, uğurla həyata keçirdiyi məqsədyönlü siyasətin davamlı və dayanıqlı olduğunu nümayiş etdirən əhəmiyyətli siyasi gedişdir.

(ardı 6-cı səhifədə)

## Mərkəzi Seçki Komissiyasında ATƏT/DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri ilə görüş



Səhifə ⇨ 5

## Ukrayna sərhəddə yeni hücuma keçəcəkmi?



Səhifə ⇨ 11

## Azərbaycanın yatırım imkanları çoxalır



Səhifə ⇨ 7

## Yalançını evinə qədər qovarlar



Səhifə ⇨ 6

# Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib. Görüşdə çıxış edən dövlətimizin başçısı İlham Əliyev dedi:**

– İlk növbədə, idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edirəm. Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə, komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.






Xüsusilə qızıl medalçılarımızı – Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır.

Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm Dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə, təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm.

*

Olimpiya çempionu, cüdoçu **Hidayət Heydərov** çıxış edərək dedi:

– Cənab Prezident, bu gün bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun. Mən çox xoşbəxtəm ki, Dünya çempionu olanda Siz məni təbrik etdiniz, mənə dəstək oldunuz. Olimpiya çempionluğunda ilk olaraq Siz mənə zəng edib təbrik etdiniz. Düzdür, özü burada olmasa da, mən bizim Olimpiya çempionumuz Elnur Məmmədliyə "Çox sağ ol" demək istəyirəm. Biz bir-birimizə söz vermişdik ki, Avropa, Dünya və Olimpiya çempionu olacağıq və olduq. İnşallah, bundan sonra da Los-Anceles Olimpiadasına birlikdə hazırlaşıb orada da öz qələbəmi göstərəcəyəm.

Mən fəxr edirəm ki, Fransanın Paris şəhərində Olimpiya çempionu oldum, bizim Bayrağımız qalxdı və Himnimiz səsləndirildi. Mən bununla çox fəxr edirəm, çox sağ olun, minnətdaram Sizə.

**Prezident İlham Əliyev:** Sağ ol.

*

Dövlətimizin başçısı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın zəhməti, istedadı, peşəkarlığı sayəsində qazandıqları qələbənin bütün xalqımıza sevinc bəxş etdiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur. İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı dedi ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan idmançılarına və məşqçilərinə yeni qələbələr və uğurlar arzuladı.

*

Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**



# Ümummilli liderin məzarı ziyarət edilib

**Paris Yay Olimpiya Oyunlarında iştirak etmiş Azərbaycan idman nümayəndə heyətinin üzvləri, olimpiya çempionları və mükafatçıları ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla yad ediblər.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, həmçinin Şəhidlər Xiyabanı da ziyarət olunub. Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

**XQ**

# Azərbaycan XİN dost ölkəni təbrik edib

**Azərbaycan Xarici işlər Nazirliyi Pakistanı Müstəqillik Günü münasibətilə təbrik edib.**




Bu barədə nazirliyin "X" hesabında paylaşım edilib.

"Qardaş Pakistan İslam Respublikasına və Pakistan xalqına Müstəqillik Günü münasibətilə səmimi və ürəkdən təbriklər! Müstəqillik gününüz mübarək, Pakistan!", – deyə paylaşımda qeyd edilib.

# Bakıda Pakistanın Müstəqillik Günü



**Bakıda Pakistanın Müstəqillik Günü qeyd olunub.**

Mərasim Pakistan dövlət bayrağının qaldırılması ilə başlayıb. Daha sonra tədbir iştirakçılarına Pakistan Prezidenti Asif Əli Zərdarinin və Baş nazir Şahbaz Şərifin bu günün Pakistan xalqı üçün əhəmiyyətini vurğulayan mesajları oxunub.

Qardaş ölkənin Azərbaycana yeni təyin olunmuş səfiri Qasım Mohiuddin isə çıxışında xalqına sülh və firavanlıq arzulayıb, onlar üçün təhlükəsizliyin önəmini vurğulayıb. Həmçinin Pakistan və Azərbaycan xalqlarının tarixə söykənən dostluqlarının vacib əhəmiyyət kəsb etdiyini deyib.

**XQ**

# Ölkə əhalisinin sayı 10,2 milyon nəfəri keçib

**Bu ilin əvvəlindən ölkə əhalisinin sayı 19 min 243 nəfər və ya 0,2 faiz artaraq 2024-cü il iyul ayının 1-i vəziyyətinə 10 milyon 200 min 13 nəfərə çatıb.**



Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, bunun 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Əhalinin 54,5 faizi şəhərdə, 45,5 faizi isə kənddə yaşayır.

**XQ**

# “Politico”ya ismarıc: Gələrsiz, görərsiz

## Azərbaycanın uğurlarına paxıllıq edənlər bütün sərhədləri aşırlar

**ABŞ-nin “Politico” qəzeti BMT-nin Azərbaycanın evsahibliyi edəcəyi, qlobal iqlim dəyişikliklərinə həsr olunmuş beynəlxalq tədbirinin – COP29-a dəvətlilərin Bakıya getmələri məsələsində “tərəddüd etdiklərini” yazıb.**




“Dünyanın bütün növ şirkətləri bu il Azərbaycanda keçiriləcək COP29 qlobal iqlim sammitinə bəlkə də Donald Trampın prezident seçkilərində qalib gəlməsi perspektivindən qorxaraq, ya tədbirə getməməyi, ya da ora kiçik nümayəndə heyətlərini göndərməyi planlaşdırırlar”. Qəzet bu zaman həmin şirkətlər arasında bu mövzuda sorğunun nə zaman və harada keçirildiyi barədə bir kəlmə də demir. Yəni, xəbərin uydurma təxəyyülün məhsulu, ən önəmlisi isə sifarişli olduğu dərhal nəzərə çarpır.

Əslində, BMT-nin iqlim dəyişikliyi ilə bağlı ən mötəbər beynəlxalq tədbirinin Azərbaycanda keçiriləcəyi barədə qərarından sonra başda ermənipərəst kollektiv Qərb olmaqla, bədxahların ölkəmizə qarşı informasiya kampaniyasına başlayacaqları gözlənilən idi. Bununla bağlı xaricdəki erməni lobbisinin, diasporunun müxtəlif təşkilatlara müraciət etdikləri, məktub göndərdikləri barədə yazmışdıq. Axı, həmin separatçı-daşnaklar Ermənistanın COP29-un Bakıda keçirilməsi üçün Azərbaycana güzəştə getməsi faktı ilə heç cür barışa bilmirlər. Onların qarınlarına sancı salan əsas səbəblərdən biri də elə budur.

Daha sonra nəşr yazır ki, Bakı, guya, dünyanın hər tərəfindən gələcək minlərlə qonağı qəbul etmək iqtidarında deyil. Guya, Bakının mehmanxanalarında o qədər qonağı yerləşdirmək üçün yer çatışmazlığı var. Belə məlum olur ki, təxribatçı məqalə müəllifi, yaxud müəllifləri Azərbaycan paytaxtında olmayıb və bu səbəbdən onlarda Bakının Azərbaycana gələcək xarici qonaqların sayı və onların yerlə təmin olunması məsələsində şübhələr əmələ gəlib. Ardınca daha bir ağ yalan üfürülür ki, əgər BMT mövcud reallıqdan xəbərdar olsaydı, bu halda COP29-un Azərbaycan paytaxtında keçirilməsinə çalışmazdı.

Qəzetin başqa bir yalanı isə bundan ibarətdir ki, guya, Bakıda belə genişmiqyaslı konfrans və seminarların keçirilməsi üçün zəruri məkan azdır. Ağ yalan oxucunun gözünə girir! Bakıda son illərdə inşa edilmiş müasir biznes mərkəzlərində, konfrans zallarında, dünya standartlarına cavab verən beynəlxalq forum və seminarlar keçirilib.

“Politico”nun Azərbaycanın ünvanına yağdırdığı uydurma ittihamlardan biri də COP29-a bir neçə gün qalmış Donald Trampın prezident seçiləcəyi təqdirdə Vaşinqtonun Bakıya rəsmi nümayəndə heyətini göndərməyəcəyi barədə versiyasıdır. Səbəb Trampın iqlim dəyişikliyi mövzusuna qətiyyən maraq göstərmədiyi, hətta ABŞ-ni Fransa Sazişindən çıxarmaq barədə qərar verəcəyi ehtimalıdır. Feyk-xəbərin diplomatik altqatını sezdinizmi? Haypərəst nəşr bu psevdo-versiyasını ortaya atmaqla Ağ evin yeni administrasiyasında COP29-da iştirakla bağlı tərəddüdlərin yarana biləcəyini “təxmin edir”. Təpədən-dırnağadək erməni siyasi texnologiyasının izi ideoloji ssenarinin növbəti fəslinə diqqət edin: “Böyük Britaniyanın enerji sənayesi rəsmilərindən biri qəzetə deyib: “Azərbaycanla bağlı sənaye həyəcanı o qədər də yüksək deyil”. Ardınca əlavə edir: “İngilis rəsmisi bunu “insanları əsəbiləşdirən pis ev sahibi seçimi” ilə əsaslandırıb.

Feyk-xəbərinə mötəbərlilik və inandırıcılıq qatmaqdan ötrü, hətta, Böyük britaniyalı naməlum məmura “istinadla” şərhi də nəşrin qərəzli və sifarişli fəaliyyətindən şübhələnməyə kifayət qədər arqument verir.

Bizim üçün ABŞ nəşrinin Bakının COP29-a evsahibliyinə qarşı “əks-arqumenti” daha böyük maraq kəsb etdi. Ən azı, bu “arqumentin” başdan-ayağa yalan olduğunu əyani şəkildə sübuta yetirmək üçün “Politico”nun rəhbərlərini Bakıya – COP29-a dəvət etmək istərdik. Gələrsiz, görərsiz...

***İ.HƏSƏNQALA***
***XQ***

### Ekspert rəyi

**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı**



“Politico” qəzeti yazır ki, guya, dövlət liderlərinin bir qrupu və böyük şirkət sahibləri Bakıdakı tədbirdə iştirak etməyəcəklər. Əksinə, iqlim dəyişikliyi ilə bağlı deməyə sözü olan liderlər və şirkət rəhbərləri Bakıda iştirak etməkdə maraqlı olacaqlar. Əlbəttə, Fransa prezidenti Emmanuel Makronu Bakıda heç kim gözləmir, yerdə qalan dövlət başçıları və baş nazirlər isə Bakıdakı tədbirdə iştirakdan imtina etməzlər. Enerji şirkətləri yaşıl enerji sahəsində pay sahibi olmaq və gəlir əldə etmək istəyirlər. Tək elə bu səbəbdən həmin şirkətlər Bakı konfransında iştirakda maraqlı olacaqlar.

Ermənipərəst nəşr diqqəti ona yönəldir ki, Donald Tramp ABŞ prezidenti seçilərsə, onun administrasiyası iqlim dəyişikliyi mövzusuna maraq göstərməyəcək və bu səbəbdən Vaşinqton Bakıya nümayəndə heyəti göndərməyəcək. Birincisi, Donald Tramp hələ rəqibi Kamala Harris üzərində qələbə qazanmalıdır. Son sorğular namizədlərin reytinqlərinin yaxın olduğunu göstərir. İkincisi, ABŞ-nin başı prezident seçkilərinə qarışsa da, bütün hallarda Vaşinqtondan Bakıya nümayəndə heyəti göndəriləcək. Çünki iqlim dəyişikliyi ilə bağlı Ağ ev rəsmilərinin də deməyə sözləri var.

Bundan əvvəlki iqlim dəyişikliyi konfransı Birləşmiş Ərəb Əmirliklərində – Dubayda keçirilib. Orada hansı müzakirələr gedibsə, hansı qərarlar verilibsə, Bakı da eynisinə iddialıdır. Əgər böyük dövlətlər Bakıdakı konfransda razılaşmalar əldə etməyəcəklərsə, bu, Azərbaycanın deyil, dünyanın problemi olacaq. Azərbaycan o dövlətlərdəndir ki, iqlim dəyişikliyi ilə bağlı ciddi tədbirlərin görülməsinin tərəfdarıdır.

Beləliklə, COP29 tədbiri yaxınlaşdıqca anti-Azərbaycan mərkəzlərin və onlarla əlbir olan erməni lobbisinin fəallığının artacağı gözlənilən idi. Önəmli olan tədbirə yüksək səviyyədə hazırlaşmaq və qonaqpərvərliyimizi nümayiş etdirməkdir. Bunu bacaracağımıza heç kəs şübhə etməsin.

# Baqratı payızda sayarlar!

**Gələn aydan etibarən radikal revanşistlərin Ermənistanda yeni etiraz aksiyalarına başlayacaqları gözlənilir. Yaz aylarında “Vətən naminə Tavuş” adlı qondarma hərəkat yaradan, sonra isə onun uğursuzluğunu görüb “Müqəddəs mübarizə” adını seçən erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan bunun anonsunu hələ iyulun 22-də verib. O, payızda etiraz aksiyalarının mütəşəkkil olması üçün indidən ciddi hazırlıq işləri görür. Bu məqsədlə İrəvanın rayonlarını, ölkənin digər şəhər və rayonlarını, kəndləri gəzib-dolaşır, əhali ilə görüşlər keçirir, onlar arasında hakimiyyət əleyhinə təbliğat işi aparır. Eyni zamanda, Qalstanyan müxalif siyasi düşərgədən daha çox insanı öz sıralarına cəlb etməyə çalışır. Ancaq siyasi qüvvələrin heç də hamısı onun çağırışına müsbət cavab vermir. Bələlərindən biri İrəvanın sabiq meri, “Yeni qüvvələr” partiyasının lideri Hayk Marutyandır.**



“Joxovurd” qəzeti yazır ki, Marutyan bu ilin sentyabrından aktiv siyasi fəaliyyətə başlayacaq. Nəşr xatırladır ki, Qalstanyanın rəhbərlik etdiyi hərəkat da sentyabrda aktiv mübarizəni bərpa etməyi planlaşdırır. Bununla belə, Marutyanın partiyası etiraz hərəkatına qoşulmaq niyyətində deyil. “Yeni qüvvələr” partiyasının rəhbərliyində təmsil olunan Qriqor Yeritsyan bildirib ki, onların fikrincə, növbədənkənar seçkilər mövcud vəziyyətdən çıxış yolu ola bilər: “Aydındır ki, hərəkat (Baqratın hərəkatı nəzərdə tutulur–S.H.) təmsilçiləri növbədənkənar seçkilərə getmək niyyətində deyillər. Bundan əlavə, hərəkatda bizim üçün qəbuledilməz fiqurlar da iştirak edirlər”.

O, həmçinin bildirib ki, Marutyan və komandası Ermənistanın bölgələrinə səfər edəcək, orada vətəndaşlarla görüşlər keçirəcək. “Yeni qüvvələr”in lideri partiya strukturlarını da inkişaf etdirmək niyyətindədir. Xatırladaq ki, “Yeni qüvvələr” partiyasının qurultayı bu ilin mayında olub.

Siyasi qüvvələrin Baqratın hərəkatına maraq göstərmədiklərinə baxmayaraq, Qalstanyan, necə deyərlər, özünü o yerə qoymur. Keşiş Ermənistanın Martuni rayonunun sakinləri ilə görüş zamanı deyib: “Biz çox çətin və mürəkkəb, lakin nəticə əldə edilməsi mümkün olan yol seçmişik. “Çətindir, çünki biz geosiyasi qüvvələrin bizim üçün yalvarışlarına (?) icazə verməmişik. Əgər hansısa əlaqə yaransa, o, ləyaqətli şəkildə olacaq. Biz çoxlu zəng və təkliflər aldıq, amma hamısı rədd edildi. Onlar (Ermənistan hakimiyyəti–S.H.) hər yerdə yalvarırlar ki, öz mövqelərini, pullarını saxlaya bilsinlər. İyunun 12-də iqtidarın qana susadığını gördüyümüz üçün mübarizəmizin davamı fərqli metodologiya ilə, fərqli hərəkətlərlə, mümkün qədər təmassız üsullarla olacaq. Biz taktikanı dəyişmək barədə düşünürük”.

“Hraparak” qəzeti isə öz mənbələrinə istinadən yazır ki, İrəvan polis idarəsinin xüsusi təyinatlı batalyonunun komandiri Haykaz Comardyanın rəhbərlik etdiyi təhlükəsizlik qüvvələri B.Qalstanyanın paytaxtın rayonlarında hərəkatın tərəfdarları ilə görüşlərini müşayiət edir. “Müxalifətin görüşlərinin başlanmasına bir neçə saat qalmış daxili işlər nazirliyi əraziyə, necə deyərlər, desant çıxarır. Bütün görüş ərzində isə dəstəyə nəzarəti və idarəetməni qırmızı beretlilərin məşhur rəisi Haykaz Comardyan həyata keçirir” – deyə nəşr yazır. Qəzetin bildirdiyinə görə, yığıncaqların keçirildiyi ərazidə əməliyyat nömrə nişanlı avtomobillər də olur ki, oradan görüş iştirakçılarını mobil telefonlarla çəkirlər. Qeyd edilib ki, Qalstanyanın Avan inzibati dairəsinin Çarav Axbyur rayonunda keçirilən görüşünü Comardyan mülki geyimdə şəxsən izləyib: “Arxiyepiskop görüş başa çatdıqdan sonra uşaqlarla futbol oynayıb. Comardyan isə oyunun başa çatmasını gözləyib, yalnız Qalstanyan getdikdən sonra, gecə yarısı ərazini tərk edib”.

Məlumata görə, Qalstanyan tərəfdarları ilə görüşdən üç gün əvvəl, Çarav Axbyur, kafesinə gedib və Comardyanın fotosunu divardan götürüb. Məlum olub ki, sonuncu bu kafenin sadiq qonağıdır, ona görə də onun şəkli divara yapışdırılıb.

Öz növbəsində hakimiyyət də müxalifətin fəaliyyətini əngəlləmək üçün əməllərindən qalmır. Hayastanda rus dilində nəşr olunan “Qolos Armenii” qəzetinin yazdığına görə, həm payızda gözlənilən etiraz aksiyalarının uğursuz olmasını, həm də 2026-cı ildə parlament seçkilərində qələbəni təmin etmək üçün hakim “Mülki müqavilə” partiyasının sıralarında “təmizlənmə” prosesi başlanıb. Qeyd edilir ki, Nikol Paşinyan məzuniyyətdə olduğu üçün “Mülki müqavilə”nin idarə heyətinin iclasları bir neçə həftədir keçirilmirdi. Avqustun 13-də Paşinyanın iştirakı ilə idarə heyətinin iclası baş tutub. Onun iclasa qatılması səbəbindən paytaxtın Sayat-Nova prospekti tamamilə iflic olub.

Partiyanın yaydığı xəbərə görə, iclas Paşinyanın sədrliyi ilə keçib. Toplantıda “Mülki müqavilə”nin paytaxtın bir sıra rayonları üzrə yerli təşkilatlarının başçıları dəyişdirilib. “Qolos Armenii” onu da bildirib ki, Paşinyan vilayətlərdə və inzibati rayonlarda rəhbər vəzifələrə səlahiyyətindən sui-istifadə etməyən və verilən tapşırıqları dinməz-söyləməz icra edən şəxsləri gətirməyə çalışır. O da bildirilir ki, baş nazirin mütəmadi olaraq bölgələrə, eləcə də paytaxtın müxtəlif inzibati rayonlarına səfər etməsinin bir səbəbi də budur. Məlumata görə, yaxın vaxtlarda “Mülki müqavilə”-nin müxtəlif rayon təşkilatlarının rəhbərlərinin fəaliyyəti dayandırılacaq və onlar yeniləri ilə əvəz olunacaq.

Hakimiyyət nümayəndələri, həmçinin yerli sakinlərin B.Qalstanyanla görüşlərdə fəal iştirak edəcəkləri təqdirdə, vilayət icmalarının rəhbərlərini dövlət subsidiyalarından məhrum edilməklə hədələyiblər. “Panorama.am” saytı bu barədə yazır: “Ararat (Zəngibasar–S.H.) vilayətinin inzibati rəhbərlərindən biri bizə dedi ki, arxiyepiskopun səfərindən əvvəl yerli hakimiyyət orqanları icmaların başçılarına və inzibati rəhbərlərə xüsusi xəbərdarlıq ediblər. Deyilib ki, onların icmalarında arxiyepiskopla görüşlər izdihamlı olarsa, bu icmalar dövlət proqramlarını və subsidiyalarını itirəcəklər. Hətta təqaüdçüləri də təqaüddən məhrum etməklə qorxudublar”.

Saytın yazdığına görə, vilayətlərin sakinləri şəhər və kəndlərinin hakimiyyətin hədəfinə çevrilməməsi üçün hətta fəal müxalifətçiləri də Qalstanyanla görüşlərdə iştirak etməməyə inandırmağa başlayıblar. Nəşr qeyd edib ki, arxiyepiskopun tərəfdarları ilə Zəngəzur və Kərkibasar (haylar bu qədim yurd yerlərimizi müvafiq olaraq Sünik və Araqatsotn adlandırırlar) bölgələrində keçirdikləri görüşlər Zəngibasar və Göyçə (Qeqarkunik) ilə müqayisədə daha izdihamlı olub.

Qeyd edək ki, qondarma “Vətən naminə Tavuş” hərəkatı mayın 4-də Azərbaycanla sərhədlərin delimitasiyanın dayandırılması və hakimiyyətin istefası tələbi ilə sərhədyanı Kirants kəndindən İrəvana yürüşə başlamışdı. İyunun 12-də hərəkat parlament binası yaxınlığında mitinq keçirmişdi. Həmin vaxt binada Paşinyanın iştirakı ilə hökumət saatı keçirilirdi. Etirazçılar polislərin səfini yarmağa cəhd edəndə vəziyyət gərginləşmiş və asayiş keşikçiləri xüsusi avadanlıqlardan istifadə etmək məcburiyyətində qalmışdı. Həmin gün aksiya iştirakçıları arasından xeyli saxlanılanlar olmuşdu.

İrəvan məhkəməsi isə dünən parlament binası yaxınlığında polislə toqquşma zamanı saxlanılan 12 müxalifət fəalının həbs-qətimkan tədbirini dəyişib. Bu barədə jurnalistlərə məlumat verən vəkil Ruben Melikyan bildirib ki, hakim prosesdə həbs-qətimkan tədbirinin dəyişdirilməsi və 8 siyasi məhbusun ev dustaqlığından, 4 siyasi məhbusun isə həbsdən azad edilməsi barədə qərar qəbul edib. Onlar barəsində başqa yerə getməmək və inzibati nəzarət tədbiri tətbiq edilib.

Daha əvvəl vəkil jurnalistlərə açıqlamasında bildirmişdi ki, 16 müxalifətçidən 15-i xuliqanlıqda, biri isə kütləvi iğtişaşlarda ittiham olunur. Baqrat isə keçirdiyi brifinqdə demişdi ki, bütün müttəhimlər siyasi təqibin qurbanı olublar və müttəhimlər kobud və qeyri-mütənasib güc tətbiq edən polis olmalı idi.

Onu da qeyd edək ki, yay fəsli, adətən, siyasi proseslərin sönük keçməsi ilə xarakterizə olunur. Bütün ölkələrdə siyasi qüvvələr bu fəsildə fasilə götürürlər. Ermənistanda isə yayda temperaturla yanaşı, siyasi hərarət də yüksəkdir. Bu isə payızda proseslərin daha qızğın keçəcəyini söyləməyə əsas verir.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** da müxalifətin qarşıdakı aylarda Hayastanda gərginlik yaratmağa çalışacağını düşünür. Ancaq o hesab edir ki, radikal revanşistlərin hakimiyyəti yenidən ələ keçirmək şansı çox azdır. Politoloq öz fikirlərini müxalifətin utopik fikirlər irəli sürməsi ilə əsaslandırdı. Qeyd etdi ki, Baqrat və tərəfdarları mövcud iqtidarın devrilməsindən sonra bütün problemlərin həllini tapacağını vəd edirlər: “Onların fikrincə, Ermənistanın yeganə problemi Paşinyan və onun iqtidarıdır. Halbuki erməni xalqı müharibədəki məğlubiyyətdən sonra da yenidən Nikola etimad göstərdi. Digər tərəfdən xalq başa düşür ki, Paşinyan hakimiyyətdən devrilsə, Qarabağ klanı gec-tez iqtidara yiyələnəcək. Klanın əsas təmsilçiləri olan Robert Koçaryan və Serj Sarkisyanın nüfuzu isə çox aşağıdır”.



Z.Məmmədov onu da bildirdi ki, haylar B.Qalstanyanın timsalında, əslində, Koçaryan–Sarkisyan cütlüyünə “yox!” deyir. Onun payızda, yaxud ilin digər fəsillərində aktivləşməsinin, yürüş etməsinin, mitinqlər keçirməsinin faydası olmayacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Stanonun Paşinyanın “avrointeqratorlar”ına reallıq dərsi

## Aİ rəsmisi İrəvanın ucuz populizmini necə faş etdi?

**(əvvəli 1-ci səhifədə)**



Məlum olduğu kimi, baş nazir Nikol Paşinyan və komandasının üzvləri, həmçinin onlara yaxın ekspert və politoloq cameəsinin təmsilçiləri çox tez-tez Avropaya inteqrasiyanın vacibliyindən danışırlar. Nəinki danışırlar, məsələni Ermənistanın ənənəvi Rusiya xəttindən uzaqlaşması fonunda təqdim edir, habelə mövcud xüsusda anti-Rusiya təbliğatı aparırlar. 2018-ci ildən, yəni qərbpərəst N.Paşinyanın iqtidara yiyələnməsindən sonra ölkənin xarici siyasətinin ən mühüm seqmentini məhz bu istiqamətdəki hərəkət və davranışlar təşkil etməkdədir.

Ancaq Nikol və komandasının irəli sürdükləri tezislər heç də həmişə uğurlu olmayıb. Üstəlik, İkinci Qarabağ müharibəsindəki acınacaqlı məğlubiyyətin doğurduğu və aradan qalxmayan aqonik durum var. Erməni hakimiyyətinə zidd daxili qüvvələr Qərbin müharibədə ölkəni təkbaşına, köməksiz halda buraxdığını vurğulayıblar. Sual olunur: indi Qərbin ermənilərə ürəyi yanır? Əlbəttə ki, yox!

44 günlük müharibənin gətirdiyi fəlakətlər erməni “avrointeqratorlar”ın mövqeyini zəif salan son dərəcə tutarlı amildir. Bu amilə görədir ki, Paşinyan iqtidarı Rusiyadan ayrılaraq Qərbə yaxınlaşmanın vacibliyini heç vaxt lazımi qədər əsaslandırıb üstünlüyə yiyələnə, siyasi dividend qazana bilmir. Amma cari ilin aprelində bir qədər fərqli durum meydana çıxdı. Məlum olduğu kimi, Brüsseldə ABŞ–Avropa İttifaqı–Ermənistan formatında yüksək səviyyəli görüş keçirildi. Həmin görüşdə həm İrəvana konkret yardım paketi təsdiqləndi, həm də üçtərəfli təmas əsnasında Ermənistanın Aİ-yə qoşulacağına dair rəyin formalaşdırılmasına start verildi.

Əslində, haqqında söz açdığımız yüksək səviyyəli görüşü Ermənistanın Aİ-yə qoşulmasının mesajı kimi təqdim edən Paşinyanın komandası idi. Yəni, Aİ tərəfdən mövcud istiqamətdə nikbin fikirlər səslənmirdi. Hərçənd, bədbin düşüncələr də gündəmə gəlmirdi və gələ bilməzdi. Avropalılar məsələyə diplomatik tərzdə yanaşır, Ermənistanın Aİ-yə üzvlüyü barədə pozitiv ruhlu ehtimallarını səsləndirirdilər. Yəni “nə zamansa belə bir şey ola bilər” kimi deyimlər var idi. Bu deyimlər Ermənistanın anti-Rusiya ovqatına rəng qatmağa hesablanır, illüziya yaradırdı. Üstəlik, rəsmi İrəvanın təmsilçiləri də avropalıların pozitiv yüklü fikirlərini Rusiyadan ayrılmaq yönümlü fəaliyyətlərinin uğuru qismində önə çəkirdilər. Beləliklə, hər iki tərəf bir-birini bilərəkdən aldadırdı. Aldanmada ən böyük pay sahibi isə erməni cəmiyyəti olurdu.

İndi P.Stano bildirir ki, Ermənistanla Aİ arasındakı təmaslar heç bir halda birincinin Aİ-yə üzvlüyü ilə bağlı danışıqlar demək deyil. Onun söylədikləri erməni müxalif kəsimində bomba effekti yaradıb. Bu kəsimin nümayəndələri vurğulayırlar ki, Stano dedikləri ilə erməni xalqını aldatmaqda davam edən, bütün fəlakətlərə, itkilərə, Qarabağın əldən çıxmasına, milli rüsvayçılığa görə cavabdehlik daşıyan Paşinyan iqtidarının üzünə tüpürüb. Məsələ niyə belə sərt qoyulur? Ona görə ki, rəsmi İrəvan və ona yaxın şəxslərin dediklərindən belə çıxırdı ki, Qərbə yaxınlaşmaq və ölkə üçün tamamilə yeni səhifə açmaq naminə Qarabağdan və digər işğal edilmiş Azərbaycan ərazilərindən uzaq durmaq vacibdir. Əlbəttə, onlar bu tezisi 44 günlük müharibədən sonra işə salmışdılar. Müharibəyə qədər isə erməni “məxməri inqilabı”nın başbilənlərinin təcavüzü leqallaşdırmaq, hətta yeni işğallar üçün “müqəddəs motivlər” uydurmaq missiyası ön planda idi. Halbuki N.Paşinyan hakimiyyətə gəlməzdən öncə vurğulamışdı ki, Qarabağ Ermənistanın çiynindən asılmış ağır daşdır və ölkə bu daşı atmalıdır...

Əlqərəz, hazırda P.Stanonun dilə gətirdikləri erməni iqtidarının səmimiyyətdən uzaq obrazındakı boz rəng çalarlarının növbəti dəfə ortaya qoyulmasıdır. Ermənistanın müxalif kəsimi onun sözlərinə istinad edərək, Azərbaycanın Aİ üçün önəmini vurğulayan fikirləri gündəmə gətirir və bildirir ki, qurum Cənubi Qafqaz regionunda öz prioritetlərini müəyyənləşdirib. Bu prioritetləri Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen açıqlayıb. Məlumdur ki, xanım Lyayen Azərbaycanla və Türkiyə ilə strateji tərəfdaşlığın önəmini vurğulamışdı. Bu sıraya Avropaya enerji nəqli ilə bağlı Bakı–Brüssel anlaşmasını da əlavə etsək, Stanonun söylədiklərindən sonra erməni müxalifətinin ölkə iqtidarına deyəcək “ürək sözlərinin” az olmadığı qənaətinə gələ bilərik.

Qeyd edək ki, sıravi erməni Aİ–Ermənistan yaxınlığını ancaq Avropaya maneəsiz səyahət kimi təsəvvürə gətirir. Əslində, rəsmi İrəvanın da təbliğatını apardığı başlıca məqam budur. Belədə sual yaranır: həmin o sıravi erməni “köhnə qitə”ni hansı maliyyə ilə gəzəcək? O, Romanın, Milanın, Madridin, Berlinin küçələrində soyutma yumurta ilə bulka yeyərək, şəkil çəkdirərək xoşbəxt ola biləcəkmi? Yaxud onun təyyarə biletinə pulu çatacaqmı?

İndiki halda ermənilərin Avropaya sərbəst gedişi baxımından ən böyük qazanc şengen vizası almaq üçün ödənilməyəcək 60 avro ola bilər. Yəni, Paşinyan və tərəfdarlarının avrointeqrasiya təfəkkürü yalnız bu qədər fayda üzərində qurulub. Ortada, kifayət qədər, bəsit mənzərə var. Nəzərə alaq ki, Avropa ilə viza rejiminin ləğvi hələ heç nə demək deyil. Əslində, P.Stanonun da dolayısı ilə diqqətə çatdırdığı elə budur.

Yeri gəlmişkən, Avropadan Ermənistan üçün viza ləğvinin nə demək olduğu ilə bağlı bəyanatlara diqqət yetirəndə görürsən ki, məsələnin məğzi heç də viza rejiminin tamamilə aradan qaldırılmasından ibarət deyil. Sadəcə, turistik məqsədlər ön plandadır. Necə deyərlər, ölmə eşşəyim ölmə, yaz gələndə yonca bitəcək. Əslində, Stano bu deyimin Ermənistan üçün aktuallığını təsdiqlədi. Qalır ermənilərin reallığın üzünə dik baxa bilmələri...

Aydındır ki, indiki durumda Avropa üçün yeni mühacir axını tam gərəksizdir. Ac-yalavac ermənilərə isə ehtiyac heç yoxdur. Digər tərəfdən, ortada Gürcüstan presedenti var. Hazırda gürcü vətəndaşlar Avropaya maneəsiz gedib-gəlirlər. Ancaq bunun özü də ölkənin Aİ-yə üzvlüyü anlamına gəlmir. Hərçənd Gürcüstan Qərbə inteqrasiya baxımından Ermənistandan qat-qat irəlidədir və Avropa ailəsinin tamhüquqlu üzvü olmaq yolunda xeyli məsafə qət edib. Paşinyan iqtidarının yalanı isə həm də ondadır ki, bu iqtidar heç bir zəruri prosedurlardan keçilmədiyi halda, Ermənistanın Aİ-yə qoşulması məntiqinin təbliğinə girişir.

Ancaq Nikolu heç də tam mənada axmaq adlandırmaq doğru sayılmaz. Diqqət yetirək, hazırda avropalılar gürcü hakimiyyəti ilə yaranmış fikir ayrılıqları fonunda ölkə vətəndaşlarının Avropaya maneəsiz gediş-gəlişinin ləğvinə çağırırlar. Deməli, burada heç də tam mənada hansısa prosedurların yerinə yetirilməsinin vacibliyindən söhbət getmir. Paşinyan da yaxşı anlayır ki, Avropa, daha doğrusu, Aİ istəsə, bütün prinsipləri heçə sayıb bilavasitə siyasi qərar verə bilər. Ona görə də erməni iqtidarı və tərəfdarları necə deyərlər, barıtı artıq edirlər. Bu, əslində, Aİ-yə ünvanlanmış şantajdır. Təxminən belə: biz sizin üçün Rusiya ilə mübarizə aparırıq, siz də bizim üçün nə isə etməlisiniz.

Ancaq Paşinyan və tərəfdarlarının unutduqları bir mühüm məqam da var. Ermənistanla Aİ arasında viza rejimi aradan qalxsa, bir qədər uzaq perspektivdə İrəvan quruma üzv qəbul olunsa, üç milyonluq ölkədə heç kəs qalmayacaq. Ac-yalavac ermənilərin Avropaya axın edəcəklərini vurğuladıq. Belə bir gedişat Qərbdə heç kəsə lazım deyil. Təkcə ona görə yox ki, Avropa yeni miqrant axınını arzulamır. Eyni zamanda, o səbəbdən ki, Qərb üçün Ermənistanda kiminsə, kimlərinsə qərar tutmaları, yaşamaları vacibdir. Ölkədə kimsə qalmalıdır ki, o kimsələri idarə edəcək hakimiyyət də mövcud olsun. Hakimiyyətin mövcudluğu isə Cənubi Qafqazda avantürizmin saxlanılması baxımından şərtdir.

Ümumiləşdirmə aparsaq, belə qənaətə gələ bilərik ki, P.Stano Ermənistan üçün “Avropa cənnəti”nin yalnız yuxuda ola biləcəyinin anonsunu verdi. Əvvəldə də bildirdiyimiz kimi, bu anons erməni iqtidarının riyakar mahiyyətinin növbəti sübutudur. Deməli, Paşinyan və komandasının Aİ-yə qoşulmaqla bağlı ölkədə referendum keçirilməsinə dair bildirdikləri ucuz şoudan başqa bir şey deyil. Stano bu kimi şoulara da ehtiyacın duyulmadığını demiş oldu. Görək, Paşinyan və onun “avrointeqratorlar”ı Qərbyönümlü xəttin vacibliyini əsaslandırmaq üçün başqa hansı yalanlar uyduracaqlar. Bu “potensialın” onlarda yetərincə güclü olduğuna əminik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Nankorluqda həyasızlıq etüdləri

## Kursk böhranı və erməni iqtidarının anti-Rusiya ovqatı

**Ukrayna ordusunun Rusiya ərazisində – Kurskda həyata keçirdiyi hərbi əməliyyatlar Ermənistanın qərbpərəst kəsiminin təmsilçilərində böyük sevinc hissi doğurub. Onların irəli sürdükləri başlıca sual budur: Rusiya öz sərhədini qoruya bilmirsə, Ermənistanı necə qoruyacaq?**



Sual Ermənistandakı ruspərəst qütbə, daha doğrusu, mütləq əksəriyyəti ruspərəstlərdən ibarət aparıcı müxalifətə yönəlib. O müxalifətə ki, şovinist xislətlidir, Qarabağ müharibəsindəki acınacaqlı məğlubiyyətin revanşından danışır, bu zaman Rusiyanın gəlib hər şeyi ermənilərin yerinə edəcəyinə dair sərsəm düşüncələrə baş vurur.

Bəli, sırf bu suala görə qərbpərəst erməniləri haqlı saymaq mümkündür. Çünki nəticə göz önündədir. Yəni Ukrayna ordusu Kurskda hərbi əməliyyat reallaşdıra bilirsə, deməli, Rusiya öz sərhədlərini qorumaqda çətinlik çəkir. Hərçənd durumun pərdəarxası başqa məqamlarının olması ehtimalı da nəzərdən qaçmamalıdır...

Əlqərəz, mövzumuz Rusiya–Ukrayna müharibəsindəki hazırkı vəziyyətə görə erməni hakim siyasi industriyasında sevinc ab-havasının yaşanmasıdır. Daha doğrusu, baş nazir Nikol Paşinyan və tərəfdarlarının həmin vəziyyəti ölkə daxilindəki opponentlərinə qarşı istifadə etmək əzmində. Bu əzmin nümayişi zamanı bir sıra digər mətləblər meydana çıxır ki, yazımızda onları da diqqətə çatdıracağıq.

Əvvəlcə bir sual üzərində dayanaq: Bugünkü avantürist mahiyyətli Ermənistanı hansı Qərb qoruyacaq? 2022-ci ildən indiyədək bütün resurslarını cəmləşdirsə də, Rusiyanı məğlubiyyətə uğrada bilməyən Qərb? Görəsən, erməni siyasilər nəyə görə məsələyə mövcud prizmadan da yanaşmırlar? Səbəb çox sadədir, çünki direktivləri başqadır.

Eyni zamanda, erməni siyasi dairələrinin, fərqi yoxdur ya Rusiyanın, ya da Qərbin timsalında, özlərinə hami axtarmaq yönümlü xətti son dərəcə yanlışdır. Görünür, bu yanlışlıqlar içərisində itib-batmağa üstünlük verirlər. Yəni, Paşinyan və komandasının, eləcə də ona yaxın ekspert-politoloq cameəsinin irəli sürdüyü bütün tezislər mənasızdır. Çünki həmin tezislər Ermənistanın müstəqil dövlət kimi qərar qəbuletmə potensialının yoxluğundan xəbər verir.

İndi isə Rusiya–Ukrayna müharibəsinin hazırkı axarının Ermənistanda doğurduğu mülahizələrdəki konkret məqamlar üzərində dayanaq. Qeyd edək ki, Paşinyan və tərəfdarları 2020-ci ilin 44 günlük müharibəsinin ölkələri üçün böyük dərs olduğunu vurğulayırlar. Onların fikrincə, əgər savaşda məğlubiyyət yaşanmasaydı, erməni iqtidarı Rusiyanın ölkənin təhlükəsizliyinin təminatçısı olmadığını görə bilməyəcəkdi.

Ortada son dərəcə sərsəm baxış var. Görəsən, Ermənistan 2020-ci il müharibəsinə Rusiyaya arxalanaraqmı baş vurmuşdu? Bəlkə Paşinyan Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirəndə, sərxoş olub Cıdır düzündə özünü küləyə verəndə Moskvaya güvənmişdi? Əlbəttə ki, yox!

Nikolun güvənc yeri Qərb idi. Paşinyan hesab etmişdi ki, demokratiyanın qladiatoru obrazı Qərbin onu dəstəkləməsi reallığını doğuracaq və savaşda qalibiyyət qazanaraq Qarabağ problemini birdəfəlik həll edəcək, bölgənin Ermənistan ərazisi olaraq rəsmiləşməsinə nail olacaq.

Ancaq 44 günlük müharibə dönəmində Paşinyan Rusiyanın ətəyindən yapışdı. Özü də çox. O zaman yapışdı ki, Qərbdən heç bir real dəstəyin olmadığını gördü. O, Rusiyaya yalvarmağa başladı. Həm yalvardı, həm də hansısa tələblər irəli sürdü. Nikol tələb səsləndirməyi deyil, qəti şəkildə yalvarmaq yolunu seçəndə, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat imzalandı. O bəyanat ki, onun kapitulyasiya aktı mahiyyəti daşıdığı nə erməni iqtidarına, nə də onun xaricdəki havadarlarına çatdı. Elə indi də çatmır. Hər iki cinah anlaya bilmir ki, üçtərəfli bəyanat Rusiyanın Ermənistanı Azərbaycanın əlindən alması idi. Anlaya bilmir və ortaya erməni siyasi industriyası adına son dərəcə böyük nankorluq çıxır.

Erməni iqtidarına yaxın dairələr özlərinin nankor davranışları fonunda onu da bildirirlər ki, ölkələrinin hazırkı təhlükəsizliyinin təminatını gücləndirmək baxımından Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu tamamilə aradan qaldırmaq lazımdır. Onlar Rusiya sərhədçilərinin və əsgərlərinin “Zvartnots” hava limanından və 17 hərbi postdan çıxarılmasını vacib addım kimi dəyərləndirirlər. Bununla belə hesab edirlər ki, rus hərbçilərinin Türkiyə və İranla sərhəddən də uzaqlaşdırılmaları zəruridir. Sən demə, həmin ölkələrdən hücum olsa, ruslar aciz qalacaqlarmış...

Göründüyü kimi, bu xəstə düşüncəlilər yığını mütləq ya qəsb etməyi planlaşdırır, ya da özlərinə hücum olunmasını gözləyir. Axı xislətlərində rahat yaşayıb ömür sürmək anlayışı yoxdur. Siyasi düşüncələrini də məhz natamamlıqlarına uyğunlaşdırır, hansısa düzgünlüklər, obyektivliklər axtarışına çıxırlar. Düşdükləri acınacaqlı durum isə göz önündədir. Heç şübhəsiz, çapaladıqları bataqlıqda boğulmaları qaçılmazdır.

Ermənistan hakimiyyətinə yaxın siyasilər proqnoz şəklində onu da bildirirlər ki, Ukrayna Kurskda yekun uğur qazansa, Ermənistan rus hərbçilərinin ölkə sərhədlərindən tamamilə çıxarılması məsələsini qəti şəkildə qoyacaq. Bəs Ukrayna uğur qazanmasa, necə olacaq? Görünür, hazırkı durumun rəzilliyi erməni ictimai rəyini qətiyyən narahat etmir. Yəni heç kəs soruşmur və otuz ilə yaxın müddətdə də soruşmayıb ki, nə üçün Gümrüdəki sərhəd-keçid məntəqəsində Rusiya bayrağı Ermənistan bayrağından bir baş yuxarıda dalğalanmaqdadır? Heç kəs soruşmur ki, nə üçün müstəqil dövlətin sərhədini digər dövlətin hərbçisi qorumalıdır? İndi, guya, Ukraynanın Kurskdakı qələbəsinə hesablanmış oyun qururlar. Görəsən, fərqinə varırlarmı ki, yazdıqlarını, dediklərini Rusiyada da yaxşı görürlər və dilə gətirdikləri yıxılanı baltalamaqdır? Əlbəttə, fərqinə varmaya bilərlər və bunun günahı onlarda yox, elə ruslardadır. Nə qədər ki, Rusiya ictimai rəyinin təmsilçiləri, obrazlı desək, qarşılıqsız erməni sevgisi üçün alışıb-yanacaqlar, bu sayaq nankor erməni şıltaqlıqlarına da dözməli olacaqlar. Ancaq dözümün də bir həddi var.

***Ə.RÜSTƏMOV***
***XQ***



# Milli Məclisə seçkilərə 16 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Mərkəzi Seçki Komissiyasında ATƏT/DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri ilə görüş



**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov avqustun 14-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçki müşahidə missiyasının rəhbəri Ditmir Buşatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

M.Pənahov missiyanın görüş üçün təşəbbüsünü yüksək qiymətləndirib.

D.Buşati Milli Məclisə seçkilərdə proseslərin gedişi ilə maraqlanıb.

MSK sədri seçkilərin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində görülən işlər, ölkə vətəndaşlarının seçmək və seçilmək hüquqlarının daha səmərəli realizə olunması üçün komissiyanın fəaliyyəti və reallaşdırılan çoxsaylı müxtəlif səpkili layihələrdən danışıb, bütün addımların qanunvericiliyin tələblərinə uyğun və tam şəffaflıq şəraitində atıldığını diqqətə çatdırıb.

Qonaqların suallarını cavablandıran M.Pənahov, həmçinin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcək Milli Məclisə seçkilərə hazırlıqların və nəzərdə tutulan genişmiqyaslı layihələrin müvəffəqiyyətlə davam etdiyini vurğulayıb.

Görüş zamanı Milli Məclisə seçkilərlə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi və müzakirələr aparılıb.

## Seçki hüquqları qanunla qorunur

**Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərlə bağlı ölkəmizdə səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının nümayəndəsi – həmin qurumun hüquqi təhlilçisi Branislav Soloviç ilə Bakı Apellyasiya Məhkəməsində görüş keçirilib.**

Bakı Apellyasiya Məhkəməsindən verilən məlumata görə, görüşdə seçki mübahisələrinin məhkəmə qaydasında həlli, seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə müxtəlif mövzular ətrafında müzakirələr aparılıb.

Həmçinin qonağı maraqlandıran məsələlərə aydınlıq gətirilib.



## Seçkilərin önəmli məqamları

**Azərbaycan elektoratının parlament seçkilərinə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlətin vətəndaşı kimi qatılması ölkəmizin tarixində dönüş nöqtəsi sayıla bilər. Bu vəziyyət özündə Azərbaycan xalqının illərlə mübarizə apardığı, torpaqlarının geri qaytarılması və ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi məqsədinə çatmasını simvolizə edir. Bu vacib məqamın əhəmiyyəti bir neçə istiqamətdə izah edilə bilər:**



1. Milli birlik: Ərazi bütövlüyünün bərpası xalqın milli qürurunu artırır və birlik hissini gücləndirir. Hər bir vətəndaş üçün bu, qazanılan qələbənin bir hissəsi olmaq, dövlətin və millətin gücünü hiss etmək deməkdir.

2. Dövlətin beynəlxalq nüfuzu: Azərbaycan ərazi bütövlüyünü bərpa edərək beynəlxalq arenada öz suverenliyini və gücünü bir daha təsdiqləyib. Bu, ölkənin xarici siyasətində və beynəlxalq münasibətlərində mövqeyini daha da gücləndirir.

3. Siyasi sabitlik: Ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi ölkədə siyasi sabitliyi dəstəkləyir. Bu, həm daxili siyasi proseslərin, həm də seçkilərin daha sağlam və ədalətli keçməsinə şərait yaradır.

4. İqtisadi inkişaf: Azərbaycan işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialını inkişaf etdirmək imkanı əldə edir. Bu, yeni iş yerlərinin yaradılması, investisiya imkanlarını artırır və ümumilikdə, ölkənin iqtisadi inkişafını sürətləndirir.

5. Gələcək perspektivlər: Bu tarixi məqam Azərbaycan vətəndaşları üçün daha sabit və perspektivli gələcək vəd edir. Gənclərin daha güclü və firavan bir Azərbaycanın inkişafına töhfə vermək imkanlarını genişləndirirlər.

Nəticə etibarilə, sentyabrın 1-də keçiriləcək parlament seçkiləri Azərbaycanın həm daxildə, həm də beynəlxalq arenada güclənməsini təmin edəcək və hər bir vətəndaş üçün daha firavan bir gələcəyin təməlini qoyacaq.

## Multikultural dəyərlərə sədaqət

**“Milli Məclisə seçkilər Azərbaycan tarixinə fərqli formada düşəcək. Çünki xalqımız 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror əməliyyatı nəticəsində tam azad edilmiş torpaqlarda ilk dəfə öz deputatlarını seçəcəkdir”.**

Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Azərbaycan Yəhudi Media Mərkəzinin direktoru Nəsimi Əbilov deyib. O, Vətən müharibəsi zamanı Azərbaycan xalqının birləşərək öz iradəsini ortaya qoyduğunu vurğulayıb:

“Qurtuluş savaşında Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən yəhudilər yumruq kimi birləşdilər. Bunun nəticəsində Milli Məclisə seçkiləri Şuşada, Laçında, Xankəndidə və işğaldan azad olunmuş digər ərazilərimizdə də keçirə bilirik. Doğma yurduna qayıdan yerli əhali, keçmiş məcburi köçkünlər artıq öz deputatlarını yaşadıqları tarixi torpaqlarında seçəcəklər. Bütün bunlar bizi qürurlandırır. Multikultural dəyərləri qoruyub saxlayan Azərbaycan son illər ardıcıl şəkildə bir neçə tarixi hadisəyə imzasını atıb. 2020-ci ildən başlayan bu tarixi hadisələrin siyahısına Milli Məclisə keçiriləcək seçkilərin də düşəcəyinə əminəm.




1 sentyabr seçkilərində ölkədə yaşayan bütün xalqların nümayəndələrinin fəal olacağına əminəm”.

## Seçkilərin Qarabağı da əhatə etməsi öyünc doğurur

**“Budəfəki parlament seçkiləri bütün ölkə ərazisində keçiriləcək. Baxmayaraq ki, yay fəslinə təsadüf edir, insanların çoxu istirahətdədir. Amma seçkilərin Qarabağda da keçirilməsi yay fəslini də unutdurur”.**

Bu fikirləri “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında tanınmış yazıçı Seyran Səxavət bildirib.



O əlavə edib ki, sentyabrın 1-nə təyin olunmuş Milli Məclisə seçkilərin bütün ölkəni əhatə etməsi, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda keçirilməsi çox möhtəşəm hadisədir: “Çünki bu, müstəqilliyimizin bərpasından sonra bir ilkdir. Keçirdiyim iftixar hissim, ən böyük duyğum da bununla bağlıdır”.

## Medianın İnkişafı Agentliyində müzakirə



**Medianın İnkişafı Agentliyində (MİA) ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçki müşahidə missiyasının rəhbəri Ditmir Buşati və media analitiki Kira Kalinina ilə görüş keçirilib.**

Görüşdə MİA-nın icraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media landşaftı, bu sahədə həyata keçirilən islahatların gedişatı, agentliyin əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, qonaqların suallarını cavablandırıb.

Görüşdə, həmçinin 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilərdə medianin fəaliyyəti ilə əlaqədar müzakirələr aparılıb.

## Qaydalara əməl etməyənə seçki bülleteni verilməyəcək

**Seçkilərdə hər birimiz səs verərkən sol əlimizin baş barmağının gözlə görünməyən mürəkkəblə işarələndiyinin şahidi olmuşuq.**



Bunun edilməsi məcburidirmi və yaxud barmağın işarələnməsindən imtina etmək olarmı?

Suala cavab olaraq “Seçki 2024” Müstəqil Media Mərkəzi məlumat verir ki, seçicinin barmağının gözlə görünməyən mürəkkəblə işarələnməsi Seçki Məcəlləsinin tələbidir. Məcəllənin 104.6-cı maddəsində göstərilir ki, seçiciyə seçki bülleteni vermədən öncə onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsi gözlə görünməyən mürəkkəblə işarələnməlidir.

Bu və ya digər səbəbdən barmağının işarələnməsindən imtina edən seçiciyə seçki bülleteni verilmir və ondan seçki məntəqəsini tərk etməsi tələb olunur. Daha sonra bu barədə seçici siyahısında “İşarələnmədən imtina etdi” qeydi aparılır.

# Seçki xəbərləri

### Treninqlər davam edir




Milli Məclisə növbədənkənar seçkilərə hazırlıq ölkənin müxtəlif dairələrində davam edir. 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy, Ağsu, habelə 31 saylı Suraxanı seçki dairələrində MSK-nın təşkil etdiyi treninqlərə məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri cəlb olunublar. Treninqlərdə seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə prosesi, səslərin hesablanması, protokolun doldurulması, həmçinin digər mövzularda müzakirələr aparılır və suallar cavablandırılır.

### Müşahidə Missiyası Audiovizual Şurada

Azərbaycan Respublikası Audiovizual Şurasında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının media analitiki Kira Kalinina ilə görüş keçirilib. Şuranın aparat rəhbəri Fazil Novruzov qonağa “Media haqqında” Qanunun qəbulundan sonra audiovizual medianın tənzimlənməsi



sahəsində yeniliklər, tele-radio kanallarının monitorinqi barədə geniş məlumat verib. Görüş zamanı Milli Məclisə növbədənkənar seçkilərlə bağlı televiziya və radio yayımında seçkiqabağı təşviqatın aparılması, həmin prosesə məsul qurumlar, televiziya və radio yayımında təşviqat kampaniyasının monitorinqi və sair məsələlərlə bağlı qonağı maraqlandıran suallara cavab verilib.

*Səhifəni hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# “Vahid tarixi-mədəni coğrafi region” ideyası və Mərkəzi Asiya ilə birlik strategiyası

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının Astana görüşündəki dərin məzmunlu və proqram xarakterli çıxışı müasir dövrdə bu geniş coğrafi ərazilərdə yerləşən dövlətlərin qarşılıqlı əlaqələrinin ən zəruri vəzifələrini diqqət mərkəzinə çəkən, vahid strategiyanı müəyyən edən aydın və qəti siyasi xəttin əyani ifadəsindən ibarətdir. Dövlət başçımızın çıxışındakı bir sıra siyasi-tarixi müddəalar görüşün mahiyyətini açan və hədəflərini nəzərə çatdıran yeni təyinatlardır. Məsələn, Prezident İlham Əliyevin çıxışında səslənən aşağıdakı fikir Azərbaycan və Mərkəzi Asiya münasibətlərinin ortaq dəyərlərinin müəyyən edilməsi baxımından tam yeni və real elmi-siyasi formatdır: “Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.”

İndiyəqədərki elmi-siyasi ədəbiyyatlarda Azərbaycan və Mərkəzi Asiya münasibətlərindən söz açılarkən Cənubi Qafqaz regionu ilə, yaxud Xəzər hövzəsi ölkələri ilə Orta Asiya respublikalarının əlaqələrindən bəhs edilmişdir. Hətta ortaq türk–müsəlman sivilizasiyasından bəhs edən dünya tədqiqatçıları da bir birinə çox yaxın olan, biri-digərini tamamlayan bu mədəniyyətin Orta Asiyaya aid hissəsini Böyük çöl, Azərbaycanı əhatə edən hissəsini isə Bozqır mədəniyyəti kimi fərqli ifadələrlə adlandırmışlar. İlk dəfədir ki, Prezident İlham Əliyev tərəfindən Astana görüşündə Azərbaycan və Mərkəzi Asiya dövlətləri “vahid tarixi-mədəni coğrafi region” səviyyəsində səciyyələndirilmişdir. Əvvəla, bu yeni tarixi-coğrafi format Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ardıcıl olaraq davam etdirdiyi Türk dünyasının birliyi və həmrəyliyi siyasətinin yaradıcı şəkildə davamı olub, həmin anlayışın yeni tarixi şəraitdə formalaşan siyasi-coğrafi trayektoriyasının dəqiq elmi təyinatıdır. Bundan başqa, Prezident İlham Əliyevin Astana görüşündəki çıxışında Azərbaycanla Mərkəzi Asiyanı “vahid tarixi-mədəni coğrafi region” kimi dəyərləndirməyin əsas ümumi faktorlarının xalqlarımızı birləşdirən “çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər”dən ibarət olduğu da obyektiv şəkildə nəzərə çatdırılmışdır. Bütün bunlarla bərabər, Azərbaycanla Mərkəzi Asiyanı “vahid tarixi-mədəni coğrafi region” adlandırılmasının ilk dəfə məhz indi, XXI əsrin iyirminci illərində meydana çıxması tarixi-mədəni faktorlarla birlikdə bu ölkələrin müasir dövrdəki münasibətlər sistemindəki ortaq taleyi və perspektiv inkişafı ilə də üzvi surətdə əlaqədardır.

Məlum olduğu kimi, Azərbaycan hazırda həm Asiyanı və həm də Avropanı, hətta Amerikanı eyni dərəcədə cəlb edən TransXəzər Beynəlxalq Nəqliyyat Marşrutunun – Orta dəhlizin qızıl açarıdır. Tarixi İpək yolu yenidən bərpa edilərkən, yaxud



Çin Xalq Respublikasının hazırda həyata keçirdiyi “Bir kəmər, bir yol” proqramının icrası üçün Azərbaycan Avrasiya coğrafiyasının baş keçidi funksiyasını yerinə yetirir. Bu baxımdan Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında ən etibarlı körpüdür. Bütün dünyanın maraq orbitində olan Orta dəhlizin reallaşdırılması məsələsində Azərbaycanla Mərkəzi Asiyanı ortaq funksiyalar və vahid maraqlar birləşdirir. Bütün bu reallıqlar Prezident İlham Əliyevin çıxışındakı Azərbaycanla Mərkəzi Asiya dövlətlərinə eyni dərəcədə şamil edilmiş “artan strateji əhəmiyyətə malik olan” kimi dəqiq ifadələr də öz əksini tapmışdır. Deməli, XXI əsrin reallığı olan Azərbaycanla Mərkəzi Asiya ölkələrinin “vahid tarixi-mədəni coğrafi region” adlandırılmasının din, dil, tarix, mədəniyyət kimi ortaq dəyərlərlə bərabər, həm də vahid strateji əsasları da mövcuddur.

Azərbaycanla Mərkəzi Asiya ölkələrini “vahid tarixi-mədəni coğrafi region” miqyasında təqdim olunması Prezident İlham Əliyevin məsələyə tarixi-mədəni və geosiyasi cəhətdən kompleks baxışının obyektiv ifadəsi olub, ortaq keçmişlə ortaq müasir inkişafın və gələcəyin vahid mövqedən qiymətləndirilməsinin elmi-siyasi düsturudur. Məhz bunun bariz ifadəsidir ki, Prezident İlham Əliyevin Azərbaycanla Mərkəzi Asiya Dövlət Başçılarının Astana görüşündəki mühüm praqmatik əsaslara malik olan çıxışında “vahid tarixi-mədəni coğrafi region” haqqında danışılarkən ortaq dostluq və əməkdaşlıqdan deyil, “qardaşlıq münasibətlərinin təzahürlərindən biri”, “qardaşlıq dəstəyi” kimi daha dərin və doğma münasibətləri ifadə edən sözlərdən istifadə olunmuşdur. Eyni zamanda, dövlət başçımızın çıxışında Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə bütün sferalarda “birgə təşəbbüsləri dəstəkləməyə hazır olduğunun” xüsusi olaraq diqqətə çatdırılması da ölkəmizin “vahid tarixi-mədəni coğrafi region”un müasir inkişafında və gələcəyində maraqlı olduğunu və məsuliyyət daşıdığını nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər ətrafından Tanrı dağlarına qədərki böyük coğrafiyanı əhatə edən “vahid tarixi-mədəni coğrafi region” anlayışının ideya müəllifi olmaqla bərabər, həm də əsas qurucularından biridir. Azərbaycan Prezidentinin son iki il müddətində Mərkəzi Asiya ölkələrinə – Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Türkmənistana 16 dəfə səfər etməsi, hər səfərində ortaq dəyərlərimizin daha da möhkəmləndirilməsi və əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətli və düşünülmüş addımlar atması, mühüm çağırışlar səsləndirməsi bunun əyani sübutudur. Andiçmə mərasimindəki “türk dünyası bizim ailəmizdir” sözləri ilə yeni siyasi qurum olan Türk Dövlətləri Təşkilatının dərin mənəvi kökləri və əsasları olduğunu bəyan etməsi və “vahid tarixi-mədəni coğrafi region”un birlik və həmrəyliyinin – Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin də ortaq tarixi-mədəni dəyərlər əsasında formalaşdığını nəzərə çatdırması Prezident İlham Əliyevin geniş ictimai-siyasi baxışları ilə yanaşı, həm də ortaq gələcək məsələsinə də aydın və gerçək münasibətlərini meydana qoyur. Cəmi bir ay əvvəl Türk Dövlətləri Təşkilatına üzv ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Şuşa görüşünü yüksək səviyyədə təşkil etməklə, həm də türk dövlətlərinin vahid dəyərlərindən ortaq gələcəyinə qədərki missiyaları gündəmə gətirən birgə Şuşa Bəyannaməsinin imzalanmasına nail olması Azərbaycan Prezidentinin həm də “vahid tarixi-mədəni coğrafi region”un qurulmasındakı müstəsna rolunu və xidmətlərini təsəvvür etməyə imkan yaradır.

Dövlət başçımızın yaranmış hər fürsətdə, o cümlədən Astana görüşündə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa edilməsində Füzuli şəhərində Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına orta məktəbin, Qazaxıstanın Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikilib istifadəyə verilməsini, Qırğızıstanın Ağdam rayonunda orta məktəb binasının təməlqoyma mərasimini keçirməsini birlik və həmrəylik istiqamətində örnək hadisələr kimi minnətdarlıq hissi ilə qeyd etməsi də nəticə etibarilə “vahid tarixi-mədəni coğrafi region”un quruculuğunun təşviq edilməsinə hesablanmış gedişlərdir.

Tarixi İpək Yolunun bərpasının yeni tarixi mərhələdəki mühüm göstəricilərindən olan Bakı–Tbilisi–Qars dəmir yolunun əsas müəllifi olması və Dəmir İpək Yolunun yükdaşıma qabiliyyətinin 1 milyon tondan 5 milyon tona çatdırılması da Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsinə töhfə verəcək hadisədir. Astana görüşündə Prezident İlham Əliyevin çıxışında Ələt Beynəlxalq Ticarət Limanının salınması və limanın illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması, Azərbaycanın Qazaxıstan, Özbəkistan və Qırğızıstanla birgə investisiya fondlarının yaradılması, tam yeni hadisə olan “Rəqəmsal İpək Yolu” layihəsinin gerçəkləşdirilməsi məsələlərindən bəhs edilməsi Azərbaycanın “vahid tarixi-mədəni coğrafi region”un qurulmasındakı fəal iştirakını nəzərə çarpdırır. Qeyd edilənlər, eyni zamanda, Mərkəzi Asiya ölkələrində də “vahid tarixi-mədəni coğrafi region”un yaradılmasındakı fəallaşmaqda olan iştirakını da gündəmə gətirməyə və təşviq etməyə əsas verir.

Astana görüşündə bəyan edilmiş “vahid tarixi-mədəni coğrafi region” anlayışı Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin müdafiə və təhlükəsizlik məsələlərinə də yenidən baxılması zərurətini meydana qoyur. Bu nöqtədən çıxış edən Prezident İlham Əliyevin Astana görüşündə səsləndirdiyi aşağıdakı fikirlər vahid regionun birgə müdafiə sisteminin yaradılmasına çağırışın ifadəsidir: “Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi “Birləşdik – 2024” beynəlxalq əməliyyat-taktiki komanda – qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.”

İlk dəfə 2021-ci ildə Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi – Müttəfiqlik Müqaviləsində, sonra isə 2023-cü ildə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin rəhbərlərinin imzaladıqları növbəti Şuşa Bəyannaməsində öz əksini tapmış birgə müdafiə və təhlükəsizlik məsələləri Prezident İlham Əliyevin Astana görüşündəki çıxışında bir daha diqqət mərkəzinə çəkilməklə möhkəmləndirilmişdir. Özbəkistan Respublikasının Qazaxıstan Respublikası ilə Müttəfiqlik Bəyannaməsi imzalamaq haqqında razılığa gəlmələrinə dair mətbuatda yayılmış məlumatlar başlanmış proseslərin genişlənməkdə olduğunu əks etdirir. Eyni zamanda, Tacikistanın Türkiyəyə və Avropaya çıxışı baxımından Azərbaycanın nəqliyyat–logistika imkanlarından istifadə etməkdə iddialı olması da həmin prosesin əks-sədasıdır.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının Astana görüşündəki iştirakı və çıxışı türk-müsəlman dünyasında birlik və həmrəyliyin yeni formatının formalaşdırılmasına xidmət edən mühüm siyasi əhəmiyyətə malik olan hadisədir. Prezident İlham Əliyevin Astana görüşündə “vahid tarixi-mədəni coğrafi region” haqqında bəyan etdiyi yeni format Azərbaycan və Mərkəzi Asiya ölkələrinin birgə inkişaf strategiyasının müasir reallıqlarının aydın siyasi formuludur.

Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Astana görüşündə irəli sürdüyü “vahid tarixi-mədəni coğrafi region” ideyası Prezident İlham Əliyevin bu ölkələrin arasındakı əlaqələrin dövlətlərarası münasibətlərdən birgə hərtərəfli fəaliyyətə doğru inkişaf etdirilməsinə çağırışının ifadəsidir. Prezident İlham Əliyevin Astana görüşündəki çıxışında 2024-cü ilin may ayında imzalanmış “Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu”nun nümunə kimi göstərilməsi bu ölkələr arasında “yaşıl enerji” sahəsində qarşılıqlı əməkdaşlığın başlanması baxımından artıq ilk addımların atıldığını nümayiş etdirir. Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarını ölkəmizin sədrlik və evsahibliyi edəcəyi COP29 beynəlxalq tədbirinə dəvət etməsi isə prosesin uğurla davam etdiriləcəyini diqqətə çatdırır.

Göründüyü kimi, Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının Astana görüşü Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin rəhbərlərinin 3 iyul 2024-cü il tarixdə Şuşa şəhərində imzaladıqları Müttəfiqlik Bəyannaməsində öz əksini tapmış müddəaların daha da möhkəmləndirilməsinə və inkişafına xidmət edir.

Bütün bunlar Astana görüşünün Azərbaycan Respublikasının Türk dünyası və müsəlman aləmi ilə əlaqələrində yeni mərhələ və böyük başlanğıc olduğunu göstərir... Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türk dünyası və Mərkəzi Asiya ölkələri üçün müəyyən etdiyi siyasi xətt ölkəmizin və qardaş ölkələrin müasir dövrdəki məsuliyyətli və şərəfli vəzifələrinə, eyni zamanda, yaxın və uzaq gələcəkdəki perspektiv inkişafına gur işıq salır.

# Yalançını evinə qədər qovarlar

## ABŞ hərbi-nəqliyyat təyyarələrinin Ermənistana uçuşunun foto-video görüntüləri açıqlandı



**Gündəmi zəbt etmiş mövzu ilə bağlı yerli ekspertlərdə bir neçə maraqlı sual yaranıb. Misal üçün: Ağ ev doğrudanmı Cənubi Qafqaza yerləşmək planını gerçəkləşdirmək üçün Paşinyan hakimiyyətinə bu qədər güvənir? Pentaqon özünün hərbi kontingentini bölgəyə “sızdırmaqla” hansı risklərlə üz-üzə qalacağının fərqindədirmi? Yaxud Zəngəzur dəhlizinə nəzarət uğrunda böyük savaşa girişməklə Vaşinqton bundan həm Rusiyanın, həm də İranın ciddi narahat olduqlarını və onların mümkün adekvat addımlarını nəzərə alırmı? Və bunlardan heç də az əhəmiyyət kəsb etməyən daha bir sual: Vaşinqton Hayastan üzərindən nümayiş etdirdiyi avantürist hərəkətləri ilə Bakı ilə pozitiv müstəvidə saxlamağa çalışdığı münasibətlərinin diplomatik uçuruma yuvarlanma ehtimalına necə baxır?**

Hələlik fakt təsdiqini tapmadığından tərəflərdən heç biri Ağ evə ciddi reaksiya bildirmir. Kremlin baş verənlərə görə Vaşinqtondan ağlabatan şərh, açıqlama gözlədiyini söyləmək olar. Bəs Tehran? Azərbaycanın İsrail və ya Avropa dövlətləri ilə ikitərəfli münasibətlərinin yaxşılaşmasına dərhal reaksiya verən İran hakimiyyəti nədən ABŞ-nin, Fransanın, ona əks düşərgədə yer alan digərlərinin Ermənistan vasitəsilə sərhəddinə yerləşməsinə etirazını bildirmir? Yoxsa mövzu barədə İrəvandakı səfirinin başdansovdu açıqlaması ilə kifayətlənmək fikrindədir? Yəni bu bölgəyə regiondankənar qüvvələrin gəlişinin arzuolunmaz olduğunu deməklə işini bitmiş hesab edir. Belə güman etmək olar ki, sərhədçiləri Gümrü zastavasında Türkiyə–Ermənistan sərhədini qoruyan Rusiyanın ABŞ-nin bölgədə çıxardığı son “oyunlarına” reaksiyası kəskin olacaq.

* * *

On gündür gündəmi zəbt etdiyini dediyimiz mövzu ABŞ-nin Ermənistana iki hərbi təyyarə ilə silah və şəxsi heyət göndərməsi




ilə bağlıdır. Olay barədə ilk xəbəri paylaşan “Caliber.az” saytı sayca üçüncü məqaləsində İrəvan Zvartnots hava limanına enən hərbi-nəqliyyat təyyarələrindən birinin fotolarını paylaşdı. Eyni zamanda, avqustun 2-3-də Ermənistana gələn Amerika hərbçilərinin irəliləmə marşrutu və yerini dəqiqliklə təqdim etdi. Sübutları müşayiətedici şərhdə deyilir: “Fotoşəkildə göstərilən təyyarə Qətərdən havaya qalxaraq Gürcüstanın hava məkanı vasitəsilə Ermənistan ərazisinə daxil olub. Zvartnotsda silah və ABŞ hərbçilərinin olduğu üç konteyner boşaldılıb”. Sayt daha sonra yazır: “Əgər ABŞ səfirliyi və erməni tərəfi bu həqiqəti təkzib etməyə davam edərsə, biz yeni təfərrüatları təqdim etməyə hazırıq. Bizdə materiallar var, lakin onları hissə-hissə verəcəyik”.

Beləliklə, ABŞ-nin Ermənistandakı səfirliyinin saytı ilk məlumatını təkzib etmək üçün göstərdiyi uğursuz cəhdlərindən sonra sayt baş vermiş hadisənin doğruluğunu tam təsdiqləyən foto və video sübutları izləyicilərə təqdim edib. Amma buna baxmayaraq, erməni KİV-ləri və “Telegram” kanalları ABŞ-nin İrəvandakı səfirliyindən, Ermənistan Müdafiə Nazirliyindən və Zvartnots hava limanından şərh tələb etmək əvəzinə, Azərbaycan saytını “dezinformasiya” yaymaqda ittiham etməyə tələsdilər. Bu məsələlərdə “Ermənistan hərbi portalı” xüsusi canfəşanlıq göstərir.

Son görüntülərdə ABŞ-nin gizli bazasının Ermənistanın məhz sərhəd ərazisində yerləşdiyi aydınlaşdırılıb. Həm də Azərbaycan və İran sərhədi yaxınlığında ABŞ əsgərlərinin və silahlarının gizli yerləşdirilməsinin görüntüləri yayılıb.

* * *

ABŞ-nin Azərbaycandakı səfirliyi baş verən informasiya ajiotajının fonunda susur. Baxmayaraq ki, artıq hər şey faktlarla sübut olunub. Yəni, bundan sonra Vaşinqtonun hansısa bəhanə axtarışına çıxmasına lüzum qalmayıb. Hər halda əldə edilmiş sübutlara söykənərək, yalançını, indiki vəziyyətdə, avantüristi mənzilinə qədər qovmaqdan başqa çarə qalmayıb.

Yuxarıda qeyd etdiyimiz kimi, ABŞ-nin Ermənistan vasitəsilə regiona daxil olmaq istəyi qeyri-real layihədir. Çünki burada bir deyil, bir neçə “böyük güc”ün maraqlarının təhlükəli toqquşma perspektivi nəzərdən qaçırıla bilməz. Bunlar bir yana, o, regionda real gücə və söz sahibinə çevrilmiş Azərbaycana hədə-qorxu gəlməkdən əl çəkməlidir. Üstəlik, Ermənistanı silahlandırmaq, ona maliyyə yardımı göstərmək kimi avantürist addımları atmazdan qabaq yüz ölçüb bir biçməlidir. Azərbaycana qarşı yeni cəbhə açmağın nəticəsi regionda gərginliyin daha da artması və şübhəsiz ki, Vaşinqtonun hədəflərinin boş illüziyaya çevrilməsi demək olacaq.

Aydın məsələdir ki, ABŞ-nin başlıca məqsədi Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır. Amma bu planını Ermənistan vasitəsilə həyata keçirməyə çalışmaqda onun nə qədər haqlı olduğunu yaxınlarda görəcəyik. Əgər Ağ ev məlum səbəblərdən Gürcüstan əlindən çıxdıqdan sonra bölgədə özünün ən etibarlı tərəfdaşı və uğur variantı kimi Ermənistanı görürsə, bunun qarşılığında Rusiyanın Ermənistanda hərbi gücünü artırmasına qərar verəcəyi ehtimalını da nəzərindən qaçırmamalıdır.

Bütün bunların fonunda İrəvanın məhz nəyəsə ümid edərək sülh müqaviləsinin imzalanmasını ləngitməsini söyləmək olar. Bəlkə ABŞ silah-sursatını yaxından görmüş hayların iştahından daha maraqlı “menyular” keçir? Belə ehtimal edə bilərik ki, intensiv silahlanma, tərəfdaşlarından aldığı hərbi texniki, eləcə də maliyyə dəstəyi Ermənistanı növbəti revanşist addımları atmağa şirnikləndirir. İntəhası, sonda bundan ən çox zərər görən elə Ermənistanın özü olacaq. Sülh danışıqlarının növbəti raundunun keçirilməsi, ardınca kommunikasiya xətlərinin qarşılıqlı açılması bölgədə hamıdan çox məhz Ermənistanın işinə yarayacaq.

Amma Ermənistanın hələ də Rusiyanın iqtisadi və hərbi boyunduruğunda olmasını nəzərə alsaq, bu gün onun yürütdüyü yarıtmaz, bir çox hallarda avantürist xarici siyasət nəticəsində özünü çıxılmazlığa saldığı danılmaz həqiqətdir. Əgər, o, gələcəyinin Azərbaycanın təklif etdiyi şərtlər daxilində mümkünlüyünü nə qədər tez görməyi bacarsa, düşdüyü labirintdən bir o qədər tez çıxar.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanın yatırım imkanları çoxalır

## 7 ayda sərmayə qoyuluşu 2 faiz artaraq 9,4 milyon manata çatıb

**Bu ilin yanvar–iyul aylarında Azərbaycanda əsas kapitala 9 milyard 438,7 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 2 faiz çox investisiya yönəldilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektoruna yatırılan investisiyalar 0,4 faiz, qeyri neft-qaz sektoruna investisiyalar isə 2,9 faiz artıb.**

İstifadə olunan investisiyanın 4 milyard 914,8 milyon manatı və yaxud 52,1 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 404,4 milyon manatı və yaxud 36,1 faizi xidmət sahələrinə, 1 milyard 119,5 milyon manatı və yaxud 11,8 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilən investisiyaların 7 milyard 728,6 milyon manatını və yaxud 81,9 faizini daxili investisiyalar təşkil edib, 6 milyard 632,7 milyon manatı və yaxud 70,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Yuxarıda qeyd edilən rəqəmlərdən də göründüyü kimi, ölkəmizdə yaradılan əlverişli biznes və investisiya mühiti iqtisadiyyatın bir çox sahələrində önəmli layihələrin icrasını şərtləndirir. Son bir neçə ildir ki, respublikamızda milli iqtisadiyyatın investisiya cəlbediciliyi baxımından uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır.

Azərbaycanın investisiya mühiti investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması, Apellyasiya Şuralarının təşkili, "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlərlə tənzimlənir.

Azərbaycan Prezidentinin "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" 19 oktyabr 2015-ci il tarixli Fərmanına əsasən, 2015-ci il noyabrın 2-dən İqtisadiyyat Nazirliyi tərəfindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziyaların "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə başlanılıb. Həmçinin dövlət başçısının "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli Fərmanına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, indiyə kimi verilən qüvvədə olan müddətli lisenziyalar, eləcə də yeni verilən lisenziyalar müddətsiz elan edilib. Lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə (regional televiziya və radio yayımı istisna olmaqla) azaldılıb, lisenziya verən dövlət orqanların sayı 23-dən 4-ə, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilib, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə sadələşdirilib.

Ölkədə elektron xidmətlərin, müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi nəticəsində Azərbaycanda sahibkarlıq subyektlərinin "bir pəncərə" sistemi tətbiq edilməklə qeydiyyatı sadələşdirilib. Elektron xidmətlərin tətbiqi nəticəsində fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinin onlayn rejimində qeydiyyatına, vergi bəyannamələrin elektron qəbuluna başlanılıb. Nazirlər Kabinetinin 8 sentyabr 2014-cü il tarixli Qərarına əsasən, elektron imzanın alınması müddəti 2 gündən 1 günə endirilib. Həmçinin "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nın tələbinə uyğun olaraq, tikinti layihələrinin ekspertizasının "bir pəncərə" prinsipi ilə həyata keçirilməsinə başlanılıb. Aparılan islahatların davamı olaraq 2015-ci ilin oktyabrında Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb, şuranın Əsasnaməsi və tərkibi təsdiqlənib.



Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması nəzərdə tutulub və "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Kordinasiya Şurasına həvalə edilib.

Yuxarıda sadalananlarla yanaşı, Azərbaycan Prezidentinin 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilib ki, həmin sənəd Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda müəyyənləşdirilən güzəştləri əldə etməyə əsas verir. Müvafiq olaraq Vergi Məcəlləsinə 2016-cı il 19 yanvar tarixində edilən dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini alan hüquqi şəxslər və fərdi sahibkarlar mənfəət və gəlirin 50 faizinin vergisini, əmlaka görə əmlak vergisini və mülkiyyətində və ya istifadəsindəki torpaqlara görə torpaq vergisini, həmçinin idxala yönəldilən texnika, texnoloji avadanlıqlar və qurğular üzrə əlavə dəyər vergisini ödəməkdən 7 il müddətinə azad edilib. Eyni zamanda "Gömrük tarifi haqqında" Qanunda 2016-cı il 19 yanvar tarixində edilən dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini alan hüquqi şəxslər və fərdi sahibkarlar, habelə sənaye, yaxud texnologiyalar parklarının rezidentləri tərəfindən texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə, sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən texnika, texnoloji avadanlıq və qurğuların idxalı isə idxal rüsumlarından azad olunub.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 4 mart 2016-cı il tarixli Sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, gömrük orqanlarına əvvəlcədən elektron formada qısa idxal bəyannaməsini təqdim etmək yolu ilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılması və s. kompleks məsələlərin həlli ilə bağlı tapşırıqlar müəyyənləşdirilib.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" də ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərir. Adı çəkilən Yol Xəritəsinin müvafiq hədəflərini reallaşdırmaqla biznes mühitinin səmərəliliyinin artırılması istiqamətində orta müddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiqini, maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsini, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsini gerçəkləşdirir.

Sözügedən Strateji Yol Xəritəsinin 5-ci bölməsində göstərilir ki, 2025-ci ilə qədər Azərbaycanda hər il ÜDM istehsalı 3 faizdən çox artacaq və əlavə olaraq 450 mindən çox yeni iş yeri yaradılacaq. İqtisadiyyatın sektorları üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində isə qeyri-rəsmi məşğulluğun payı azalacaq.

Göründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

# Lənkəranın çayı məlhəm...

## Subtropik bölgədə çayçılıq dirçəldilir



**Dövlət Statistika Komitəsinin hesabatına əsasən, cari ilin yanvar–iyun ayları ərzində ölkədə 5,88 min tondan çox çay istehsal olunub ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 6,8 faiz və ya 373,7 ton üstələyir.**

Dövlət Gömrük Komitəsinin hesabatına əsasən isə cari ilin ilk 6 ayında ölkədən 3,12 milyon ABŞ dolları dəyərində 344,61 ton çay ixrac olunub. Bu, 2023-cü ilin yanvar-iyun aylarının göstəricilərindən müvafiq olaraq 3,5 faiz və 2,9 faiz çoxdur. Bu göstəricilərin əldə edilməsində çayın tədqiqi və yetişdirilməsi sahəsində əhəmiyyətli uğurlara imza atan AMEA Lənkəran Regional Elmi Mərkəzi (REM) səmərəli fəaliyyət göstərib. REM son illər region üçün yeni olan çay bitkisinin yerli mühitə uyğunlaşdırılması və daha məhsuldar sortlarının yaradılması ilə bağlı mühüm layihələr həyata keçirib.

Lənkəran-Astara subtropik bölgəsinin iqlim şəraiti respublikamızda müxtəlif növ və sort tərkibli subtropik bitkilərin, o cümlədən çayın geniş sənaye miqyasında inkişaf etdirilməsi üçün böyük aqroiqlim potensialına malikdir. Ölkəmizdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", həmçinin cənub bölgəsi üçün vacib olan çayçılığın inkişafına dair dövlət proqramları Azərbaycanda iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına böyük töhfələr verir.

Vaxtilə Azərbaycan keçmiş sovetlər məkanında çay və subtropik-dietik əhəmiyyətli bitki məhsulları istehsalı baxımından ön yerlərdə olub. Uzunmüddətli durğunluqdan sonra dövlət başçısı İlham Əliyevin çayçılığın inkişafına dair imzaladığı Dövlət Proqramı ölkəmizdə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərməklə yanaşı, cənub bölgəsinin ənənəvi sahələri olan çayçılıq və sitrusçuluğun inkişafı üçün əsaslı zəmin yaradıb.

REM-in qarşısında duran başlıca məqsədlərdən biri də Azərbaycan üçün bu unikal sahənin inkişafına dəstək vermək, qeyd olunan dövlət proqramlarından irəli gələn vəzifələrin icrasını təmin etməkdir. Bu məqsədlə bölgədə və respublikada elmi-tədqiqat institutları ilə, elmlə məşğul olan müəssisələrlə əməkdaşlıq müqavilələri imzalanıb və çay, sitrus və digər subtropik meyvə və bitkilər üzrə elmi-tədqiqat işlərini müştərək aparmaq, eləcə də bu bitkilərin yeni sort və formalarını Lənkəran bölgəsi şəraitində introduksiya edib öyrənmək, yeni sortların yaradılması, habelə onların genetik banklarını yaratmaq məqsədilə istiqamətlər müəyyənləşdirilib.

*Mərdan ŞİRƏLİYEV,*
*AMEA Lənkəran Regional Elm Mərkəzinin əməkdaşı*

# Yanvar–iyul aylarında illik inflyasiya 1 faiz olub

**Bu ilin yanvar–iyul aylarında istehlak qiymətləri indeksi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 101 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 99,7 faiz, qeyri-qida məhsulları üzrə 101,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,7 faiz təşkil edib.**



Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, bu ilin iyul ayında istehlak qiymətləri indeksi 2023-cü ilin eyni ayına nisbətən 102,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 102 faiz, qeyri-qida məhsulları üzrə 101,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 104,3 faiz olub. Ötən ay istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,9 faiz təşkil edib. Qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,2 faiz olub.

İyulda ayrı-ayrı qida məhsullarından əvvəlki aya nisbətən daha çox artım qoyun və toyuq əti, kolbasa məmulatları, yumurta, kərə və zeytun yağları, limon, albalı, gilas, göyərti, pomidor və xiyarın qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişiklik baş verməyib. İyulda qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,8 faiz olub. Qeyri-qida mallarından daha çox artım "Aİ92" markalı avtomobil benzini, dizel yanacağı və zərgərlik məmulatlarının qiymətlərində müşahidə olunub. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi isə əvvəlki aya nisbətən 102 faiz təşkil edib. Əhaliyə göstərilən ödənişli xidmətlərdən artım əsasən bərk məişət tullantılarının daşınması, metro, avtobus və taksi nəqliyyatı ilə sərnişindaşıma, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub.

Xatırladaq ki, inflyasiyanın azalması cari ilin əvvəlindən davamlı prosesə çevrilib. 2024-cü ilin yanvar ayında ölkədə illik inflyasiya 1,7 faiz təşkil edib. Bu göstərici 2023-cü və ondan əvvəlki illərin yanvar aylarında müvafiq olaraq 12,5 faiz və 13,6 faiz olub. Həmin vaxt ölkədə illik inflyasiyanın kəskin enmə səbəbi ilə bağlı İqtisadiyyat Nazirliyinin məlumatında bildirilirdi ki, 2023-cü il ərzində respublikamızda inflyasiyada əvvəlki illə müqayisədə azalma davam edib. Belə ki, ötən ilin dekabr ayında cəmi məhsul və xidmətlər üzrə illik inflyasiya əvvəlki ilin müvafiq göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1 faiz təşkil edib. 2023-cü ilin dekabr ayında ərzaq məhsulları üzrə illik inflyasiya 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, ödənişli xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyada səngimə 2024-cü ildə də davam edib və cari ilin yanvar ayında bu göstərici 1,7 faizə enib.

Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.

Həmin vaxt Maliyyə Nazirliyinin məlumatında isə bildirilirdi ki, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalı təşviq etmək, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında", eləcə də "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

# 7 ayda 37 milyard manatdan çox sənaye məhsulu

**Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən cari ilin yanvar-iyul aylarında 37,3 milyard manatlıq sənaye məhsulu istehsal edilib.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri neft-qaz sektorunda isə 8 faiz çoxalıb. Sənaye məhsulunun 65 faizi mədənçıxarma, 29,3 faizi emal, 4,8 faizi elektrik enerjisi və 0,9 faizi isə su təchizatı sektorunda istehsal olunub.



*Səhifəni hazırladı: Vaqif BAYRAMOV XQ*




## "Yaşıl dünya" naminə həmrəylik



# Xəzərdən Avropaya sualtı dəhliz

## *Qara dənizdən keçən bu xətt 4 qiqavat "yaşıl" enerji nəql edəcək*

**2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qafqaz regionundan Avropaya enerji körpüsünün inşasını nəzərdə tutan saziş imzalanıb. Həmin sənəd çərçivəsində 1195 kilometr uzunluğunda, 1000 meqavatt gücündə "Black Sea Energy" sualtı elektrik kabelinin tikintisi qərara alınıb.**



Elektrik kabelinin inşasının gerçəkləşdirilməsi ilə Azərbaycanda istehsal olunan "yaşıl" elektrik enerjisi Gürcüstan, eləcə də Qara dəniz vasitəsilə Rumıniyaya, daha sonra isə Macarıstana və Avropanın yerdə qalan hissəsinə nəql ediləcək. Elektrik kabelinin tikintisi 4 qiqavata qədər "yaşıl" enerji tədarükünü gerçəkləşdirməyə imkan verəcək. Dünya Bankı (DB) elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı (ESPIRE program) vasitəsilə enerji təhlükəsizliyinin gücləndirilməsi üzrə birinci mərhələnin maliyyələşdirilməsi üçün 35 milyon ABŞ dolları məbləğində krediti təsdiqləyib.

ESPIRE proqramı Qara dəniz sualtı kabel layihəsinin inkişafı üçün Gürcüstanın institusional imkanlarının yaxşılaşdırılması, yerli elektrik ötürmə sistemininin möhkəmləndirilməsi, eləcə də Cənubi Qafqaz və Cənub-Şərqi Avropa arasında birbaşa enerji əlaqəsinin qurulmasını hədəfləyən 500 milyon ABŞ dolları dəyərində potensial maliyyələşdirmə paketi ilə 3 mərhələdən ibarətdir. ESPIRE təyinat nöqtələri Gürcüstan və Rumıniyada olmaqla, Qara dəniz boyunca paralel sualtı kabel elektrik ötürmə xətləri və fiber optik kabelin çəkilməsini hədəfləyən Qara dəniz sualtı kabel layihəsinin (BSSC) hazırlığının növbəti mərhələlərini dəstəkləmək üçün nəzərdə tutulub.

Tbilisidə yerləşən İlia Dövlət Universitetinin Enerji Tədqiqatları Mərkəzinin rəhbəri, professor Murman Marqvelaşvili Azərbaycan mediasına müsahibəsində bu layihə barədə deyib: "Azərbaycan və Gürcüstan "yaşıl" enerjinin inkişafı üçün yüksək potensiala malikdir. Xüsusən Azərbaycan Xəzər dənizində külək enerjisi sahəsində böyük ehtiyata sahibdir. Gürcüstanın da hidro, eləcə də külək enerjisinin inkişafı üçün mühüm resursları var. Bu enerjinin Avropa İttifaqına ixracı nəzərdə tutulur ki, bu da qazıntı yanacağının istifadəsi ilə əlaqədar tullantıları kompensasiya etməyə və qazdan asılılığı azaltmağa imkan verir".

Murman Marqvelaşvili bildirib ki, adıçəkilən kabel yetərincə dərin sulardan keçən ən uzun sualtı infrastrukturdur, texniki baxımdan da kifayət qədər mürəkkəb layihədir. Kabel Cənubi Qafqaz və Aİ arasında bağlantını reallaşdırmaqla həm də siyasi xarakter daşıyır, sülhü və təhlükəsizliyi şərtləndirir.

Yeri gəlmişkən, Gürcüstan İqtisadiyyat Nazirliyinin bu günlərdə yaydığı məlumatda bildirilir ki, Beynəlxalq Texniki-İqtisadi Əsaslandırma (TİƏ) Təşkilatı Azərbaycanın təşəbbüskarı olduğu Qara dəniz "yaşıl" enerji kabelinin tikintisi layihəsinin iqtisadi və texniki cəhətdən səmərəliliyini təsdiqləyib. 2022-ci ildən həyata keçirilən texniki-iqtisadi əsaslandırma "Gürcüstan Dövlət Elektrik Sistemi" Dövlət Şirkətinin sifarişi, eləcə də Dünya Bankı və bu ölkənin İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin dəstəyi ilə İtaliyanın CESI konsaltinq şirkəti tərəfindən hazırlanıb.

Məlumatda qeyd edilir ki, araşdırmaya əsasən, Qara dəniz sualtı kabel layihəsi perspektivli olmaqla yanaşı, texniki və iqtisadi cəhətdən də həyata keçirilməsi mümkündür. Bildirilib ki, araşdırma çərçivəsində elektrik kabelinin optimal xarakteristikası müəyyənləşdirilib, tikinti xərcləri hesablanıb və layihənin iqtisadi təhlili aparılıb. Həmçinin kabelin quru və dənizdəki hissələrinin ilkin marşrutu müəyyən edilib, layihənin icra planı və satınalma strategiyası hazırlanıb. Dəniz dibinin geotexniki, geofiziki, ekoloji və arxeoloji tədqiqatlarının aparılması üçün tələb olunan işlərin təsviri və tenderlə bağlı texniki tapşırıq da hazırlanıb.

Gürcüstan İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, 2025–2026-cı illər ərzində ətraf mühitə və sosial şəraitə təsirlə bağlı tədqiqatlar, eləcə də layihənin dəniz dibinə təsirinin qiymətləndirilməsi həyata keçiriləcək. Xatırladaq ki, 2024-cü ilin may ayında "Transelectrica" və layihədə iştirak edən digər ölkələrin tərəfdaş operatorları olan "AzərEnerji" (Azərbaycan), "Georgian State Electrosystem" (Gürcüstan) və MVM (Macarıstan) arasında layihə üzrə şirkətin yaradılması haqqında memorandum imzalanıb. Adı hələlik məlum olmayan yeni birgə müəssisənin baş ofisinin Buxarestdə yerləşəcəyi qərara alınıb.

Rumıniyanın "Transelectrica" Elektrik Şəbəkəsi operatorunun səhmdarları tərəfindən şirkətin Qara dənizin dibi ilə Azərbaycan–Gürcüstan–Avropa "yaşıl" enerji dəhlizinin yaradılması layihəsində iştirakı təsdiqlənib. Bu barədə Rumıniya mətbuatında məlumat dərc edilib. Bildirilib ki, hökumətin nəzarətində olan "Transelectrica" şirkətinin (58 faiz) səhmdarları şirkətin Qara dənizdən keçərək Macarıstana çatacaq 1200 kilometr uzunluğunda sualtı kabel vasitəsilə Xəzər dənizi regionundan "yaşıl" və sərfəli elektrik enerjisi təchizatını nəzərdə tutan layihədə iştirakını təsdiqləyiblər.

Rumıniyanın energetika naziri Sebastyan Burduja layihə ilə bağlı bundan bir qədər əvvəl deyib: "Rumıniya üçün enerji sistemlərinin birləşməsi yeni bazara çıxış, milli enerji sisteminin təhlükəsizliyinin gücləndirilməsi, orta və uzunmüddətli perspektivdə isə bütün rumınlar üçün daha münasib qiymətə ekoloji cəhətdən təmiz enerji deməkdir".

Energetika nazirinin müavini Kamal Abbasov mediaya məlumatında bildirib ki, hazırda Azərbaycan beynəlxalq enerji şirkətləri ilə daxili istehlak üçün gücü 10 gigavata qədər olan "yaşıl" enerji istehsalını, növbəti onillikdə isə iqtisadiyyatın dekarbonizasiyası və ixrac layihələrinin həyata keçirilməsi istiqamətində əməkdaşlığı nəzərdə tutur. K. Abbasov əlavə edib ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə də işlər uğurla davam edir: "Bu istiqamətdə növbəti görüşün sentyabrda Buxarestdə keçirilməsi planlaşdırılır. Layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması prosesini 2024-cü ilin sonunadək başa çatdırmaq nəzərdə tutulur. Düşünürük ki, baş ofisi Buxarestdə olacaq birgə müəssisə cari ilin sentyabrında yaradılacaq".

Bir daha qeyd edək ki, sözügedən kabel Azərbaycanda istehsal edilən "yaşıl" elektrik enerjisinin Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya çatdırılaraq, Macarıstana və Avropanın qalan hissəsinə nəql edilməsi üçün nəzərdə tutulub. Kabel 3–4 il ərzində çəkiləcək. Avropa Komissiyası bu layihəyə 2,3 milyard avro ayırmağı planlaşdırır.

**Millətlər Birliyi təşkilatının ("Commonwealth") Baş katibi Patrisia Skotlend "Press Trust of India" nəşrinə müsahibəsində COP29-un iqlim fəaliyyəti və maliyyələşdirmə arasında fərqi aradan qaldırmaq üçün yeganə şans olduğunu bildirib. O, eyni zamanda, bunu ölkələr arasında etimadın bərpası və insanların həyat şəraitlərinin qorunması üçün vacib şərt kimi dəyərləndirib.**

## İqlim maliyyələşdirməsinin önəmi aktuallaşır

Baş katib iqlim dəyişikliyi probleminin həlli istiqamətində ölkələrin birlikdə fəaliyyət göstərmələrinin zəruriliyini də qeyd edib və qlobal səviyyədə həll olmadan bu problemin aradan qaldırılmasının mümkünsüzlüyünü diqqətə çatdırıb. İnkişaf etmiş ölkələr və böyük istehsalçılar bu məsələni ciddi qəbul etməlidirlər.

P.Skotlend daha sonra bildirib ki, iqlim böhranına tarixən cavabdeh olan inkişaf etmiş ölkələr 2009–2020-ci illərdə inkişaf etməkdə olan dövlətlərə iqlim dəyişikliyinin öhdəsindən gəlməyə yardım göstərmək məqsədilə ildə 100 milyard ABŞ dolları ayırmağı vəd etmişdilər: "Lakin maliyyə yardımının əksəriyyəti kasıb ölkələrin borc yükünü artıraraq kreditlər şəklində verildiyi üçün bu məqsədə tam nail olunmayıb. Bu ölkələrin iqlim böhranı ilə effektiv mübarizə aparmaq üçün hazırda trilyonlarla dollar məbləğində maliyyə yardımına ehtiyacı var".

# Qlobal ekoloji təhlükəsizlik 4 dəfə çox vəsait tələb edir

## Bu məbləğ hələlik 5,2 trilyon dollara bərabərdir

**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera təmsil etdiyi təşkilatla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi, enerji keçidinin sürətləndirilməsi, eyni zamanda, "yaşıl enerji" texnologiyalarına qlobal investisiyalar yatırılması və Bakının evsahibliyi edəcəyi COP29 barədə nikbin açıqlama verib.**

O, mediaya müsahibəsində deyib: "Biz iqlim dəyişikliyi ilə mübarizənin səmərəliliyindən danışarkən, ilk növbədə, bu sahədə sərmayələri 4 dəfə artıraraq 5,2 trilyon dollara çatdırmaq barədə düşünməliyik. Eyni zamanda, prioritet kimi müəyyənləşdirilən infrastruktur, siyasət və bacarıqlar kimi məsələlərə diqqəti artırmalıyıq. Həmçinin müzakirə etdiyimiz xətt üzrə infrastrukturun yenilənməsinə və gücləndirilməsinə dəstək verə biləcək çoxtərəfli maliyyə qurumları haqqında fikirləşməliyik".




Françesko La Kamera daha sonra qabaqcıl təcrübə platformasına çevriləcək iqlim konfransında ən sərfəli bərpaolunan yanacaq kimi hidrogenin tam rəqabətqabiliyyətliliyi barədə fikirlərin səsləndirilməsi və bununla bağlı qəraraların qəbulu diqqətdə saxlanılmalıdır. Hazırda hidrogen istehsalının maya dəyərinin aşağı düşdüyü müşahidə olunur. Düzdür, bəzi sahələrdə artıq rəqabətlidir, lakin, ümumiyyətlə, "yaşıl hidrogen"ə olan tələbatı dəstəkləmək, bazarı istiqamətləndirmək, bu sahəyə kifayət qədər tələbat yaratmaq üçün uğurlu strategiyalara ehtiyacı var.

Baş direktor müsahibənin sonunda Azərbaycanın COP29 konfransını uğurla keçirmək üçün hər cür imkana malik olduğunu bildirib. O, Bakıda yeni maliyyə öhdəliyi barədə qərar veriləcəyinə əminliyini ifadə edib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

**Bərpaolunan enerji potensialı baxımından çox zəngin olan Azərbaycan neft və qaz sahələrində region, eləcə də dünya üçün təhlükəsizlik, habelə iqtisadi mənada dəyər mənbəyinə çevrilib. Neft və qaz dəhlizlərini yaradan və bununla beynəlxalq aləmə uğur nümayiş etdirən respublikamız "yaşıl" enerjinin reallaşmasında da dünyada lider mövqedə olan ölkələr sırasında yer alıb.**

Respublikamızda reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda ölkəmizdə "yaşıl" enerji növləri uğurla gerçəkləşdirilir və onun dünya bazarlarına nəqli enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlanılır.

Son illər ölkəmizdə sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub. Belə ki, "Masdar" şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron-Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən 3 yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

# Azərbaycanda hidrogen istehsalı 2 dəfə artıb

## *Alternativ mənbələrdən 2,4 milyard kilovat-saat enerji əldə edilib*



Energetika Nazirliyinin yaydığı məlumata əsasən, 7 ay ərzində elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 13 milyard 863,7 milyon kilovat-saat, su-elektrik stansiyalarında (SES) 1 milyard 867,3 milyon kilovat-saat, digər mənbələr üzrə isə 538 milyon kilovat-saat təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında (KES) 33,3 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES) 352 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 152,7 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Beləliklə, "yaşıl" enerji mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə (1 milyard 327,7 milyon kilovat-saat) nisbətən 1 milyard 77,6 milyon kilovat-saat və ya 1,8 dəfə artaraq 2 milyard 405,3 milyon kilovat-saat olub.

Bu müddətdə elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 14 milyard 323 milyon kilovat-saat (İES-lərdə 12 milyard 590,6 milyon kilovat-saat, SES-lərdə 1 milyard 732,4 milyon kilovat-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 277,7 milyon kilovat-saat (İES-lərdə 116,7 milyon kilovat-saat, SES-lərdə 124,2 milyon kilovat-saat, Günəş ES-də 36,8 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 25,1 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 643,2 milyon kilovat-saat təşkil edib.

Bütün bunlar qlobal çağırışların önündə gedən Azərbaycanın hazırda bir çox istiqamətlər üzrə yeni dövrün tələblərinə ən yüksək səviyyədə reaksiya verən ölkələrdən biri kimi tanındığını deməyə əsas verir. Belə çağırışlardan ən önəmlisi isə bütün dünyada ildən-ilə artan enerji tələbatının ekoloji cəhətdən təmiz, "yaşıl yollar"la ödənilməsidir. İstehsalı bərpaolunan enerji mənbələrinə əsaslanan bu cür potensial isə hazırda ölkə üzrə 27 min meqavat həcmində qiymtləndirilir.

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürüldüyü və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılmasının (hazırda 17 faiz təşkil edir) hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla bu istiqamətdə bir çox işlər görülür. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da "yaşıl enerji" zonası elan etməsi bu hədəfə çatmağın mühüm istiqaməti kimi diqqət mərkəzində saxlanılır.

Muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına imkan verir. Bu sırada isə günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxır. Hesablamalara görə, Naxçıvan ərazisində günəşli saatların orta illik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bu isə o deməkdir ki, bütün fəsillərdə günəş enerjisindən istifadə imkanı mövcuddur. Qeyd etmək lazımdır ki, son illərdə muxtar respublikada ekoloji cəhətdən təmiz enerji istehsalı məqsədilə bir sıra addımlar atılıb. Xüsusilə yeni günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanda istehsal edilən ümumi enerjidə bərpaolunan enerjinin payını artırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən bildirilib ki, hazırda bu coğrafiyanın alternativ və bərpaolunan enerji potensialından istifadə ilə bağlı konkret dövlət sənədi mövcuddur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamətdən biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır ki, burada da əsas məqsəd "yaşıl enerji" istehsalıdır. Adıçəkilən Dövlət Proqramının qəbul olunduğu 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında 474 milyon 569 min 561 kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 19,89 faizi su elektrik və 12,75 faizi günəş elektrik stansiyalarının payına düşür.

Cari ilin 6 ayında isə ümumi elektrik enerjisi istehsalı 221 milyon 597 min 860 kilovat-saat olub ki, bunun da 105 milyon 137 min 216 kilovat-saatı su elektrik, 30 milyon 337 milyon 144 kilovat-saatı isə günəş elektrik stansiyalarında istehsal olunub. Yeri gəlmişkən, hazırda Ordubad rayonu ərazisində 36 meqavatlıq "Ordubad" və 15,6 meqavatlıq "Tivi" su elektrik stansiyalarının, Şərur rayonunda isə 3 meqavatlıq günəş elektrik stansiyasının tikintisi davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin məlumatında qeyd olunur ki, ötən il sentyabrın 28-29-da Naxçıvanda keçirilən Azərbaycan–Türkiyə 3-cü Enerji Forumu və "Naxçıvan-yaşıl enerji zonası" beynəlxalq konfransında, eləcə də Bakı Enerji Forumunda Naxçıvanın enerji potensialı ilə bağlı xarici şirkətlərlə anlaşma memorandumları imzalanıb. Naxçıvanda "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan günəş elektrik stansiyasının tikilməsi də nəzərdə tutulub.

"Czech Engineering" şirkəti isə Sədərək rayonunun Türkiyə ilə sərhədində günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi üzrə əməkdaşlıqda maraqlıdır. Eyni zamanda, Almaniyanın "Notus" şirkəti Naxçıvanda "yaşıl enerji" layihələrini reallaşdırmaq niyyətindədir. İlkin mərhələdə pilot layihə olaraq 70 meqavatlıq günəş elektrik stansiyasının Naxçıvanın şimal-qərbində – Türkiyə ilə sərhəd xəttinə yaxın ərazidə tikilməsi nəzərdən keçirilir.

Göründüyü kimi, Naxçıvanın "yaşıl enerji" potensialına, xüsusilə, bu enerjinin Türkiyə istiqamətində ixracına böyük maraq var. Buradan da o nəticəyə gəlmək mümkündür ki, yeni layihələr tezliklə Naxçıvanı "yaşıl enerji" dəhlizinə çevirəcək.

# Azərbaycan tarixinin bir əsrlik mətbu salnaməsi




**Xalqımızın ötən əsrdəki ictimai-siyasi və sosial-mədəni həyatı mürəkkəb, ziddiyyətli, bəlalı olduğu qədər də şərəfli və öyünclüdür. Çar Rusiyası imperiyasının kommunist rejimi şəraitində davamı olmuş Sovet İttifaqının formalaşdırdığı totalitar cəmiyyətdə də istedadlı və zəhmətsevər Azərbaycan xalqı sivil inkişafın bütün sahələrində tarixi nailiyyətlər qazana bilmişdir.**

Yaradılmış tarixi əsaslar SSRİ-nin süqutu prosesində müstəqil dövlət quruculuğuna yol açmış, suverenliyin təminatına çevrilmişdir. Bu gerçəyi dəyərləndirməyin vacibliyini vurğulayan ümummilli lider, qeyd edilən epoxanın son dövründə hərtərəfli tərəqqi prosesinin baş təşkilatçısı və rəhbəri olmuş Heydər Əliyev 1996-cı il aprelin 6-da ümumxalq nümayəndələri toplantısında bildirmişdi: "Azərbaycanın çoxəsrlik tarixi var. XX əsr bəşər tarixində çox görkəmli yer tutur. Hər bir ölkə, hər bir xalq XX əsrdə öz xalqı, ölkəsi üçün nələr əldə etdiyini, nələr itirdiyini əsrin sonuna qədər yekunlaşdırmalıdır. Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq. XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Nə əldə etdiyimizi, nə itirdiyimizi müəyyən etməliyik. Bu, bizim ümumi vəzifəmizdir. Alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik".

Ulu öndər 1997-ci il yanvarın 31-də AMEA-nın aparıcı alimləri ilə görüşündə isə qeyd etmişdi: "70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz". Prezident İlham Əliyev də dəfələrlə Azərbaycan tarixinin, o cümlədən XX əsr tarixinin hərtərəfli tədqiqinə diqqət yetirilməsini vurğulamışdır.

Ümummilli lider Heydər Əliyevin haqlı iradından sonra tarixçilərimiz 7 cildlik "Azərbaycan tarixi"ni nəşr etdirdilər. Bir çox qaranlıq məqamların üzərinə işıq saldılar. Amma bu "qaranlıq məqamlar" o qədər çoxdur ki, onların yeni baxımdan ideologiyasız, ətraflı və obyektiv tədqiqinə hələ uzun illər vaxt lazım olacaq.

Azərbaycan tarixinin önəmli dövrlərindən biri olan 1920–1928-ci illər ölkədə ictimai sistemli, sənaye əsaslı xalq təsərrüfatının əsaslarının yaradılması ilə əlamətdardır. Bu dövrdə sivil inkişafı müsbət qiymətləndirməklə hesab edirik ki, Azərbaycan Respublikasının müstəqilliyə qovuşması tədqiqatçılarımızın qarşısında həmin dövrün obyektiv tarixinin yaradılmasını zəruriləşdirmişdir. Bu tarixin öyrənilməsinin əhatəli və zəngin mənbələrindən biri arxiv materialları ilə yanaşı, o dövrün mətbuatıdır.

Mətbuat tariximizdən məlumdur ki, böyük Həsən bəy Zərdabinin yaratdığı ilk milli qəzet "Əkinçi"nin yolunu sonrakı dövrdə bir neçə maarifçi nəşr, XX əsrin əvvəllərindən isə sayı çoxalan demokratik və burjua nəşrləri davam etdirib. Bu mətbuatın yaradıcıları 1918-ci ildə dövlət müstəqilliyimizin bərpası ilə nəticələnən Azərbaycan Xalq Cümhuriyyətini ərsəyə gətirən milli istiqlal mücadiləsini yetişdirib. AXC dövründə isə ilk rəsmi nəşr olan "Azərbaycan" qəzeti yaranıb və milli dövlət quruculuğunun informasiya və təbliğat tribunası olub.

Cümhuriyyətin süqutundan sonra isə bu missiyanı çevriliş yolu ilə respublikada hakimiyyətə gəlmiş kommunistlərin orqanı "Kommunist" qəzeti davam etdirib. 70 il bu adla fəaliyyət göstərmiş gündəlik anadilli ictimai-siyasi nəşr sovet epoxasının davamlı, sistemli və rəngarəng mətbu salnaməsini yaradıb.

1920–1928-ci illərdə ölkəmizin xalq təsərrüfatının bərpası üzrə bir çox məsələrin həllində, iqtisadiyyat məsələlərinin təbliğ edilməsində AK(b)P MK və BK-nın orqanı olan "Kommunist" qəzeti az rol oynamamışdır. Yarandığı ilk gündən gərgin vəziyyətdə ölkədə qalmış vətənpərvər əhvali-ruhiyyəli ziyalıları ətrafında cəmləşdirən "Kommunist" qəzeti Vətənimizin xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi, dövlət orqanları və mətbuatın nüfuzunun yüksəldilməsi uğrunda yorulmadan mübarizə aparırdı.

Öz dövrü üçün birinci rəsmi partiya və dövlət qəzeti olan "Kommunist" kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərirdi. Bu qəzet həmişə tarixi hadisələrin mərkəzində olub, xalq kütlələrinə müsbət təsir göstərmiş, respublikanın gündəlik həyatında baş verən bütün məsələlərin həllində siyasi rəhbərliyin mühüm təbliğat vasitəsi olmuşdur. Bir məsələni unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi. Çünki onun iradəsi, rəhbərliyi, köməyi ilə nəşr olunurdu. Bununla belə, qəzetin yaradıcı heyəti milli təəssübkeşliyini heç vaxt unutmamış və həmişə bunun bəlasını yaşamış, cəzasını çəkmişdir.

Qəzetin səhifələrində digər məsələlərlə yanaşı, xalq təsərrüfatının bərpası və inkişafı məsələləri də mühüm yer tuturdu. Ötən əsrin 20-ci illərinin xalq təsərrüfatının bərpası üzrə təcrübəsinin öyrənilməsinə müstəqilliyin ilk illərində tələbat yaranmışdı. Bu məsələlərin həlli isə o dövr mətbuatının, xüsusilə də "Kommunist" qəzetinin tarixinin öyrənilməsini aktuallaşdırmışdı. Buna görə də o dövrdə AMEA Tarix İnstitutunda "Kommunist" qəzetinin fəaliyyətinin ilk onilliyi elmi tədqiqat mövzusu olmuşdr.

Tədqiqatçılar müxtəlif mətbuat orqanlarına bir mənbə kimi kifayət qədər tez-tez müraciət edirlər. Bu qəbildən istər keçmiş ittifaq miqyasında, istərsə də Azərbaycan miqyasında xeyli tədqiqat işi aparılmış, bu və ya digər məsələnin işıqlandırılmasında mətbuatın rolu araşdırılmışdır. Azərbaycan mətbuatı, o cümlədən "Kommunist" qəzeti də ayrı-ayrı tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu qəbildən C.Məhərrəmlinin, N.İmanquliyevin, R.Bayramovun, Q.İsmayılovun adlarını çəkmək olar. "Kommunist" qəzetinin ərəb əlifbası ilə nəşr olunduğu dövr isə tam şəkildə yalnız bizim tərəfimizdən öyrənilmişdir.

Tədqiqat prosesində heç bir arxivdə və digər mətbu orqanlarda olmayan, yalnız "Kommunist" qəzetinin səhifələrində özünə yer tapmış çox dəyərli faktlar və materiallar üzə çıxarılmışdır. Məsələn, tədqiqatçılar və oxucular tamamilə xəbərsizdirlər ki, uzun müddət tərifədikləri və indi də nostaljisini yaşadıqları sovet hakimiyyəti illərində – 20-ci illərdə qonşu respublikalarla bizim aramızda adicə vergi ödənişində böyük fərq var idi.

Əgər, tutaq ki, 1923-cü ildə adambaşına bir gürcü 1 rubl 11 qəpik, erməni – 1 rubl 45 qəpik vergi ödəyirdisə, bir azərbaycanlı 2 rubl 32 qəpik ödəməli idi. Növbəti illərdə həmin rəqəm fərqi daha da artırdı. Ümumrespublika üzrə vergiyə də nəzər salaq: qondarma Zaqafqaziya Federasiyasının illik vergisinin 51,7 faizini Azərbaycan, 37,7 faizini Gürcüstan, 10,6 faizini isə Ermənistan ödəməli idi. Əslində isə Azərbaycan həmişə bu vergini, az qala, ikiqat ödəmiş, Gürcüstan və Ermənistan isə bir dəfə də olsun vergi planını yerinə yetirməmişlər. Onların planını da Azərbaycan ödəmişdir.

Zaqafqaziya Federasiyası büdcəsinin bölüşdürülməsində də həmişə Azərbaycana qarşı haqsızlıq edilmiş, ona çatası vəsaitlər Gürcüstan və Ermənistan arasında bölüşdürülmüşdür. Təkcə 1923/24-cü təsərrüfat ilində aparılmış bölüşdürməyə əsasən, büdcə vəsaitinin 55 faizi Gürcüstana, 35-40 faizi Azərbaycana (bu rəqəm qəsdən yayğın göstərilir), 11 faizi isə Ermənistana ayrılmışdır.

Əslində, nəzərdə tutulan faizlər bir kənarda qalır, nəğd vəsaitlə bölgü isə belə aparılır: 254 min rubl Gürcüstana, 267 min rubl Ermənistana, 210 min rubl isə Azərbaycana verilir. Büdcədən əlavə ayrılmış 445 min rublun 435 min rublu Gürcüstan və Ermənistana, yerdə qalan 10 min rublu isə Azərbaycana dilənçi payı kimi verilir. Bir daha təkrar edirik ki, bu materiallar yalnız "Kommunist" qəzetinin səhifələrində yer almış və bugünə çatmışdır. Heç bir arxivdə belə məlumata rast gəlinmir. Üstəlik, bu məlumatı yazdığına görə "Kommunist" qəzeti ciddi tənbeh edilmişdi.

"Kommunist" qəzeti qısa müddət ərzində bütün Cənubi Qafqazın aparıcı dövri nəşrlərindən birinə çevrilmişdi. SSRİ-nin iri şəhərlərində və bir sıra xarici ölkələrdə xüsusi müxbirləri var idi. Azərbaycanın bütün qəzalarında və şəhərlərində də qəzetin müxbir məntəqəsi yaradılmışdı. O dövrdə partiya və dövlət səviyyəsində hərtərəfli dəstəklənən fəhlə və kəndli müxbirləri də onunla fəal əməkdaşlıq edirdilər. Ölkədə və xaricdə baş verənlər haqqında gecə saat ikiyədək əldə edilən ən son məlumatlar qəzetin səhifələrində yerləşdirilirdi. Dövlət xadimləri, aparıcı şair və yazıçılar, jurnalistlər, istehsalat qabaqcılları və b. tez-tez "Kommunist" qəzetinin səhifələrində çıxış edirdilər.

Qəzet 3 abonementdə nəşr olunurdu, yəni abunə haqqının miqdarından asılı olaraq pulsuz, az ödənişli əlavələrə malik idi. Üstəlik, ödənişi kiçik hissələrlə 3 dəfəyə həyata keçirmək mümkün idi. Müəllim, tələbə, qırmızı əsgər, kəndli və həmkarlar üzvlərinə güzəştlər edilirdi, yəni onlar qəzetin dəyərinin beşdə birinin ödənilməsindən azad edilirdilər. Qəzet tərəfindən kənd təsərrüfatına dair nəşr olunan ədəbiyyat kəndlilər arasında pulsuz paylanılırdı.

"Kommunist" qəzeti özünün inkişafı və təkmilləşməsi üçün kifayət qədər çətin, lakin qısa bir yol keçmişdir, lakin respublika partiya rəhbərliyi tərəfindən ona qarşı həmişə qərəzli və ayrı-seçkilik mövqeyi tutulmuşdur. Bununla belə, bu qəzet nüfuz baxımından o vaxtlar aparıcı sayılan və bütün hakimiyyət orqanları tərəfindən hərtərəfli dəstəklənən "Bakinskiy raboçiy" qəzetindən səviyyəli çıxmış və daha məşhur olmuşdur.

Tbilisidə çıxan "Zarya vostoka" qəzeti 1924-cü il 7 may nömrəsində yazırdı ki, "Əgər türkcə "Kommunist" qəzeti nəşrinin əvvəlki illərində çox zəif idisə, indi, demək olar ki, bütün SSRİ-də ən yaxşı qəzetlərdən biridir".

Zəngin rəqəm və faktiki materiallara əsaslanan yeni mənbələrin ilk dəfə olaraq bizim tərəfimizdən elmi dövriyyəyə daxil edilməsi və onların hərtərəfli analizi sayəsində 20-ci illərdə "Kommunist" qəzetinin təşəkkülü və inkişafı mənzərəsi konkret faktlarla öyrənilmişdir.

## İlk addımlar

Cəmiyyətin ictimai, mənəvi-tərbiyəvi və iqtisadi həyatında mətbuatın rolu və yeri çox böyükdür. Sovet hakimiyyətinin ilk illərində sovet mətbuatının təşəkkülü prosesində "Kommunist" qəzetinin səhifələrində yerli partiya komitələri və sovet orqanlarına, onların rəhbərlərinə (bəzən adları ilə), fəhlə və kəndli müxbirlərinə, bütün oxuculara ünvanlanan çağırışlar dərc edilir, yerli təcrübənin qəzet səhifələrində geniş və hərtərəfli işıqlandırılması üçün konkret məsələlər üzrə öz düşüncə, mülahizə və fikirlərini bölüşmələri təklif olunurdu.

Sovet epoxası zamanı qəzet minlərlə insanı öz ətrafında birləşdirmiş, onlarda gözəl gələcəyə və xoş əhvali-ruhiyyəyə inam oyatmışdır. "Kommunist" ziyalılarımızın ən yaxşı nümayəndələrinin bilik və bacarığını öz ətrafında cəmləşdirmişdi. Qəzet ölkənin gündəlik həyatından geri qalmamağa çalışırdı.

"Kommunist" qəzetinin ilk nömrəsi 1919-cu il avqustun 29-da, cümə günü bolşeviklər partiyasının gizli mətbəəsində 4 səhifədə çap olunmuşdu. Bu nömrə, demək olar ki, bütünlüklə dünya inqilabı məsələlərinə həsr olunub və dünya zəhmətkeşlərini inqilab uğrunda mübarizədə fəhlə sinfinin qabaqcıl rolunun daha da gücləndirilməsinə çağırışb.

Tarixi ədəbiyyatda "Kommunist" qəzetinin ilk nömrəsinin redaktorunun kimliyi barəsində fikir ayrılığı mövcuddur. "Kommunist" qəzetinin tədqiqatçısı C.Məhərrəmli hesab edir ki, qəzetin ilk redaktoru Ə.Qarayev olmuşdur, amma bu halda fikrini təsdiqləyən hər hansı bir dəlilə istinad etmir. Azərbaycan Sovet Ensiklopediyasının I və III cildlərində, "Azərbaycan Kommunist partiyasının tarixi oçerkləri"ndə, Ruhulla Axundovun "Seçilmiş əsərləri"ndə, "Kommunist–50" yubiley nəşrində, Q.Mədətovun "Ruhulla Axundov" kitabında və s. əsərlərdə göstərilir ki, "Kommunist" qəzetinin həmin sayının redaktoru Ruhulla Axundov olmuşdur. Qəzetin ilk və sonrakı nömrələrini müqayisə etdikdə, redaktə stilinə diqqət yetirdikdə, bu nəticəyə gəlmək olur ki, qəzetin ilk redaktoru Ruhulla Axundov deyil, Əliheydər Qarayev olmuşdur.

1923-cü il mayın 26-da Azərbaycan K(b)P MK "Kommunist" qəzetinə təklif edir ki, bütün jurnalistlər və mətbuat işçiləri barəsində MK-nın təbliğat-təşviqat şöbəsinə ətraflı məlumat versin. "Kommunist" qəzetinin ovaxtkı redaktoru Ruhulla Axundovun imzası ilə göndərilən geniş məlumatda onun özünün keçmiş jurnalistlik fəaliyyətindən bəhs olunarkən "Zəhmət sədası" (1917), "Bakı Şurasının əxbarı" (1918) və s. qəzetlərin nəşrində göstərdiyi xidmətləri sadalanır.



Həmin yazıda Ruhulla Axundovun "Kommunist" qəzetində işləməsi və hər hansı xidməti göstərməsi barədə cüzi eyham da yoxdur. Ruhulla Axundovun keçmiş xidmətlərini bütün təfərrüatı ilə sadalamasından çıxış edərək, eləcə də özünə və şəxsi xidmətlərinə yüksək qiymət verdiyini nəzərə alaraq güman etmək olar ki, "Kommunist" qəzetində hansısa xidməti göstərmiş Ruhulla Axundov, şübhəsiz, onları burada xüsusi qeyd etməli idi. Onun bunu təvazökarlıqdan etmədiyini düşünmək isə sadəlövhlük olardı. Belə ki, o, elə həmin yazıda başqa jurnalistlər haqqında tamamilə fərqli rəylə çıxış etmişdir.

Ruhulla Axundov rəsmi olaraq Əliheydər Qarayevi yalnız 1919-cu il avqustun 20-də RK(b)P Bakı Komitəsi Bürosunun qərarı ilə "Hürriyyət" qəzetində əvəz etmişdir. Beləliklə, "Kommunist" qəzetinin ilk sayının Ə.H.Qarayev tərəfindən redaktə olunduğunu güman etməyə əsas daha çoxdur.

Qəzetin müntəzəm nəşrinə 1920-ci il aprelin 30-dan başlanılıb. Ruslar Azərbaycanı işğal etdikdən sonra bolşeviklər "Azərbaycan" qəzetinin Kolyubakinski, 37 (indiki N.Rəfibəyli küçəsi) ünvanda yerləşən redaksiya və mətbəəsini tutub, onu "Revkomun mətbəəsi" (İnqilab komitəsinin mətbəəsi) adlandırıblar. Həmin mətbəəni 1921-ci il mayın 22-dən 4№-li mətbəə, 1924-cü ilin avqustundan isə "III İnternasional mətbəəsi" adlandırıblar. Türkcə "Azərbaycan" və rusca "Azerbaydjan" qəzetlərinin nəşri dayandırılıb, onların əvəzində əvvəlcə türkcə, bir neçə gün sonra – 1920-ci il mayın 1-dən isə həm də rusca "Kommunist" qəzetlərinin nəşrinə başlanılıb.

Qəzetin başlığında göstərilirdi ki, o Sovet Respublikası Müvəqqəti Hərbi-inqilabi Komitəsinin və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin nəşridir. Sonralar qəzet "Azərbaycan Sovet Sosialist hökuməti İnqilab Komitəsi fəhlə, kəndli, qızıl əsgər və dənizçilər Şurasının orqanı"na çevrildi. "Kommunist" qəzeti Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosunun qərarı ilə 1921-ci il aprelin 13-dən Azərbaycan İnqilab Komitəsinin (Azrəvkomun) və Bakı Sovetinin, "Azərbaycan füqərası" isə Azərbaycan K(b)P MK və BK-nın orqanı elan edilib.

I Sovetlər qurultayı tərəfindən Azərbaycan İnqilab Komitəsinin 1921-ci ilin mayından ləğv edilməsindən sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (AzMİK) təsis edilib və bu dövrdən "Kommunist" qəzeti Azərbaycan K(b)P MK və BK-nın, AzMİK və Bakı Sovetinin, "Azərbaycan füqərası" isə Azərbaycan K(b)P MK-nın orqanı olub. 1921-ci ilin sonlarında "Azərbaycan füqərası"nın adı dəyişdirilərək "Azərbaycan xəbərləri" qoyulub, amma, təxminən, bir ay sonra bu qəzetin nəşri tamamilə dayandırılıb.

Belə bir vəziyyətdə "Kommunist" qəzetinin daha da qüvvətləndirilməsi qərara alınıb və 1922-ci ilin yayında AHİŞ-in mətbu orqanı olan "Zəhmət" qəzeti onunla birləşdirilib, qəzetin bütün vəsaitləri "Kommunist" qəzetinə verilib. Bu qəzetlərin birləşməsi 1922-ci il iyulun 1-də həyata keçirilib. Bununla əlaqədar "Kommunist" qəzetinin səhifələrində geniş təbliğat aparılıb.

Kağız qıtlığı ilə əlaqədar olaraq ilk vaxtlar "Kommunist" qəzeti kiçik həcmdə, 2 səhifədə, müxtəlif rəngli, üzərində çoxlü nöqtələri və kiçik xətləri olan aşağı keyfiyyətli bükü kağızında çap edilirdi ki, bu da nöqtə və xətlərin sayından tam asılı olan ərəb əlifbasında nəşr olunan qəzetin oxunuşunu xeyli çətinləşdirirdi. Üstəlik, həmin illərdə ərəb əlifbası ilə mətn yığan linotip maşınları yox idi, qəzetin bütün səhifələri əl ilə, boşluqlar da nəzərə alınmaqla hərf-hərf yığılırdı. Bunun nəticəsində, təsadüfən də olsa, mətndə səhvlərə yol verilirdi, sözlərin, bəzən də bütöv cümlənin mənası dəyişirdi. Qəzetin əməkdaşları – həm jurnalistlər, həm də fəhlələr isə rusca nəşr olunan qəzetlərin işçilərinin sayından az idi. Onların aldıqları məvacib də rəsmi olaraq rusca nəşr olunan "Bakinskiy raboçiy" qəzetinin əməkdaşlarının məvaciblərindən bir neçə dəfə az idi.

Qəzetin ayrı-ayrı natamam komplektləri Milli Kitabxanada, Baş Arxivlər İdarəsinin, Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin, Bakı Dövlət Universitetinin, AMEA Azərbaycan Tarixi Muzeyinin kitabxanalarında, AMEA Mərkəzi Elmi Kitabxanasında və Əlyazmalar İnstitutunda saxlanılır. Bütün komplektlərdə onlarla nömrələr çatışmır, bəzən isə ayrı-ayrı illər üzrə nömrələr tapılmır. Qəzetin nisbətən tam komplekti Moskvada keçmiş Lenin adına kitabxanada saxlanılır. Qəzetin 1920–1928-ci illər üzrə bir neçə komplekti tədqiqatçı C.Məhərrəmli tərəfindən "Kommunist" qəzetinin redaksiyasında aşkar edilib və 1964-cü ildə Azərbaycan KP MK-nın qərarına uyğun olaraq Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasına verilib.

**(ardı var)**

**Elmar MƏHƏRRƏMOV,**
**tarix üzrə fəlsəfə doktoru,**
**AMEA Tarix və Etnologiya**
**İnstitutunun aparıcı elmi işçisi**

Böyük Qayıdışın akkordları

# Qarabağın körpüsalan mühəndisi

## Xankəndiyə dəmiryol xətti çəkmiş Allahverən Əliyarov 45 ildən sonra Ağdam – Füzuli magistralının körpülərini tikir

**30 il Qarabağa, Şərqi Zəngəzura uzanan yollara həsrətlə boylandıq. Bu yolların bu başı bağlı, sonu əlçatmaz idi. Doğma yurd yerlərinə xəyalən körpülər salır, yolların sonundakı qaranlıqları şirin və həm də hüznlü xatirələrimizlə işıqlandırmağa çalışırdıq.**

Torpaqlarımızı işğal etmiş erməni quldurlarının vəhşiliklərinin qurbanına çevrilən yüz minlərlə azərbaycanlının həsrətinin, iztirabının bitəcəyi, tarixi ədalətin bərpa olunacağı günü hədsiz inamla gözləyirdik. O möhtəşəm gün 4 ildir ki, gəlib. O günün səhərindən başlayaraq, azad edilmiş torpaqlarımızın yaraları sağaldılır. Bu gün daha azad Qarabağın, Şərqi Zəngəzurun yolları üzümüzə bağlı deyil. O yollar yenidən qurulur, genişlənir, abadlaşır, bizi müqəddəs torpaqlarımıza qovuşdurur. Məsafələri qısaldan çoxsaylı körpülər tikilir, tunellər çəkilir.

Bu gün regionda yol infrastrukturunun yenidən qurulması üçün genişmiqyaslı layihələr icra edilir, rayonları, şəhərləri birləşdirən bütün yollarda dayanmadan iş gedir. Yolların çəkilişi zamanı yeni körpülərin salınmasında, müxtəlif süni qurğuların tikilməsində yerli mütəxəssislərin iştirakı da xüsusi diqqətdə saxlanılır.

Azərbaycanın təcrübəli və tınınmış körpüsalanlarından olan, hazırda Ağdamdan Füzulyə çəkilən yeni yolun mühəndis-eksperti Allahverən Əliyarov üçün isə işğaldan azad olunmuş ərazilərdə işləmək ikiqat sevindirici və əlamətdardır. Çünki o, 45 il əvvəl, gənc körpüsalan kimi ilk fəaliyyətə başladığı dövrlərdə Ağdam–Xankəndi dəmir yolunun körpülərini tikib. Bugünlərdə Ağdama səfərim zamanı fürsətdən istifadə edərək artıq yaşı 70-i haqlasa da yenə gənclik həvəsi ilə Qarabağda yeni körpülər salan mühəndislə görüşüb söhbət etdik.

Məlumat üçün bildirək ki, Allahverən Əliyarov 1955-ci ildə Ağdam rayonunun Mahrızlı kəndində doğulub. 1972-ci ildə Azərbaycan İnşaat Mühəndisləri Universitetinə daxil olub. Axşam şöbəsində oxuduğu üçün elə həmin ildən də körpü tikintisi idarəsində işləməyə başlayıb. Əvvəl armaturçu kimi çalışıb, sonra briqadir, layihə rəhbəri, sahə rəisi, istehsalat bazasının müdiri vəzifələrinə yüksəlib. Bakıda, Sumqayıtda, respublikamızın bir çox rayonlarında körpülər tikib.

Sənətini, körpü salmaq işini çox sevdiyini deyən Allahverən müəllim tələbə olarkən təsadüfən gəldiyi bu sahənin onun tale yoluna çevrildiyini bildirdi:

Paytaxtımızdakı keçmiş Papanin, Çermet körpülərinin, Bakı–Sumqayıt yolunun Biləcəri və Ceyranbatandan keçən hissələrində, Qəbələ–Şəki yolunda, Yevlax–Balakən dəmir yolunda, Şimal bölgəsində bir sıra körpülərin tikintisində iştirak etmişəm. Usta kimi ilk sərbəst işim isə İsmayıllı–Qəbələ yolunda Talstançay üzərindəki 42 metrlik metal körpünün tikintisi olub. O işi layiqincə tamamladığıma görə, 1981-ci ildə Xankəndiyə göndərilmişəm. Ağdam–Xankəndi dəmir yolunun çəkilişində körpülərin tikintisi üzrə sahə rəsi işləmişəm. Xankəndidə stadionun yaxınlığında, keçmiş ağac emalı kombinatına gedən yolun üzərindəki körpünü də mən tikmişəm. Körpü salmaq mənim taleyimdir. Saldığım körpülərin üstündən keçən insanları görəndə qürur duyuram.



Allahverən Əliyarovun uğurlu fəaliyyəti, işə can yandırmağı diqqət çəkdiyi üçün gənc olmasına baxmayaraq, Xırdalan şəhərində yerləşən xüsusi Körpü-Tikinti Dəstəsinin istehsalat bazasının müdiri vəzifəsinə təyin edilib və uzun müddət burada fəaliyyət göstərib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da sevdiyi körpü tikmək işindən ayrılmayıb.

1993-cü ildə fəaliyyətini Ceyranbatanda yerləşən Körpü konstruksiyaları zavodunda baş mühəndis kimi davam etdirib. Sonrakı illərdə Azərbaycan – Rusiya avtomagistralında və ölkə ərazisində salınan digər körpülərin tikintisində sahə rəisi, ekspert-nəzarətçi kimi iştirak edib. Allahverən müəllimin körpü mütəxəssisi kimi fəaliyyətinin böyük bir dövrü də Özbəkistanla bağlıdır. O, “Akkord” şirkətlər qrupunun göndərişi ilə qardaş ölkədə çalışdığı 7 ildə burada 45 körpü və yüzlərlə süni qurğu tikib.

Vətən müharibəsində qələbədən sonra Azərbaycana qayıdan təcrübəli mütəxəssisin ən böyük arzusunun reallaşdığı məqam yetişib. Tanrı ona 45 il əvvəl çalışdığı doğma Qarabağda, Ağdamda yenidən yol tikintisində iştirak etmək xoşbəxtliyi nəsib edib:

– 2023-cü ildən Türkiyənin “Proyapı” mühəndislik və müşavirlik şirkətinin eksperti kimi Ağdam – Füzuli yolunun tikintisində çalışıram. Böyük ruh yüksəkliyi ilə işləyirəm, çünki bu, mənim ən böyük arzum olub. Şükür, Allah arzumu reallaşdırdı. Xoşbəxtəm ki, 45 il sonra yenidən azad Qarabağda yol tikintisində işləyirəm.

Səmimi söhbətimizin sonunda “Zaman və məkanlar arasında körpü salmaq imkanınız olsaydı haradan haraya körpü salardınız” sualına vətənpərvər ziyalımızın cavabı belə oldu: “Araz çayı üzərindən keçməklə bütöv Azərbaycanın işıqlı sabahına körpü salardım!”



Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam–Füzuli avtomobil yolunun inşasını Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi sürətlə davam etdirir. Qurumun İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəflidən aldığımız məlumata görə, Bərdə – Ağdam avtomobil yolunun davamı olan Ağdam – Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrindən biri sayılan yolun uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək, 4 hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin eni hər bir istiqamətdə 3,75 metr, ayırıcı zolağın eni 4 metr olmaqla yol yatağının eni 26,5 metr təşkil edir. I texniki dərəcəli olacaq avtomobil yolunda torpaq işlərinin icrası çərçivəsində yararsız qruntun çıxarılması, yatağın genişləndirməsi, 26,5 metr enində yeni yol yatağının, yol əsasının tikintisi, 331,35 metr uzunluğunda istinad divarının, suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası artıq yekunlaşıb.

Yolun ilk 32 kilometrlik hissəsində layihə çərçivəsində 36 ehtiyat keçidi, 31 dairəvi su ötürücü borunun, 27 düzbucaqlı boru, 5 alt keçid, 1 kəhriz keçidinin, 3 körpünün inşası 90 faiz tamamlanıb. Layihə üzrə nəzərdə tutulan 39-cu kilometrində körpü dayaqlarının tikintisi işləri davam etdirilir. Yolun 63 və 65-ci kilometrliyində yolötürücünün tikintisi də başa çatdırılıb.

“İnşaat Norma və Qaydaları”nın tələblərinə uyğun həyata keçirilən tikintinin tərtib olunmuş qrafikə uyğun olaraq yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

**Ağdam**

Yeni filmlər

# Şəhidin ekranda əbədiləşən döyüş yolu

**Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanların döyüş yolundan bəhs edən filmlərin çəkilişi davam edir. Belə ekran əsərlərindən biri də Qarabağda lokal xarakterli antiterror tədbirlərində qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Tapdıq Xələfova həsr olunub.**




Şəhidin qəhrəmanlıq yolunu işıqlandıran filmin quruluşçu rejissoru “ARB Günəş” televiziyasının direktoru Məhsim Məhsimovdur.

**Ekran əsərinin çəklişləri ilə bağlı XQ-yə məlumat verən rejissor söylədi:**

– Tapdıq Xələfov ərazi bütövlüyümüz uğrunda qəhrəmanlıq göstərmiş igidlərdən biridir. Xaçmaz rayonundan çağırışçı olan Tapdıq hərbi xidmətini başa vurduqdan bir neçə il sonra “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının komando hazırlığı kursu”na yazılıb. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra o, taleyini yenidən orduyla bağlayıb. Soydaşımızın həyatı ilə maraqlandıqda, onun hələ kiçik yaşlarından Vətənə, orduya sevgi ruhunda böyüdüyünü görürürk. O, nümunəvi döyüş yolu keçib.



Düşmənin xeyli canlı qüvvəsinin və döyüş texnikasının sıradan çıxarılmasında Tapdığın samballı xidmətləri var. O, sentyabrın 20-də Ağdam rayonunun Sırxavənd kəndində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib. İgid şəhidə həsr etdiyimiz film “Qələbəyə gedən yol” adlanır. Ekran əsəri Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Regional Medianın İnkişafına Yardım” İctimai Birliyinin “Şəhid Tapdıq Xələfovun döyüş yolu” layihəsi əsasında çəkilir.

**İndiyə kimi belə mövzularda bir çox filmlərin ekranlaşdırıldığını deyən rejissor şəhidlərimizin qəhrəmanlığının xalqımıza tanıdılmasının zəruri olduğunu söylədi:**

–Şəhidlər müqəddəs amal uğrunda ali mərtəbəyə yüksəldilər. Onların hər biri bizim üçün çox əzizdir. İgid oğullarımız canlarını dövlətimizin ərazi bütövlüyünün bərpası yolunda qurban verdilər, Azərbaycanın mübarizliyi və qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdilər. Hər bir şəhidimizin xatirəsini əziz tutmaq, döyüş yolunu təbliğ etmək mənəvi borcumuzdur. Ona görə rejissoru olduğum 3 ekran işi qəhrəmanlarımıza həsr olunub. Bundan sonra da bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

Rejissor bildirdi ki, prodüsseri Vəli Turan, quruluşçu operatoru Azər Sultanov olan filmin çəkilişləri şəhidin boya-başa çatdığı Xaçmazın Qıraqlı kəndində aparılır.

Ekran əsərinin təqdimatı sentyabrın sonunda Bakıda gerçəkləşəcək.

*Ceyhun ALIŞLI*
*XQ*

Sabaha çağırış

# Bakıda “Bir peşənin sirri” festivalı

**Dünən axşamtərəfi paytaxtın Nizami rayonundakı Heydər Əliyev Parkında keçirilən "Bir peşənin sirri" adlı festival peşə təhsili və karyera inkişafı ilə maraqlanan çoxsaylı gənci bir məkana toplamışdı. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən peşəyönümü aksiyasının məram və məqsədi ilə bağlı qurumun direktoru Şaban Cəərçiyev XQ-yə açıqlamasında bildirdi:**



– Festivalın məqsədi peşə təhsilinə marağın artırılması, gənclərin bu sahəyə cəlb olunması və onların peşəkar karyera qurma potensialını üzə çıxarmaqdır. Bu aksiya mütəmadi olaraq paytaxtla yanaşı, bir neçə rayonda da təşkil olunur. Festivalda iştirakçılar müxtəlif peşə sahələri üzrə ustad dərslərində iştirak edərək, öz bacarıqlarını inkişaf etdirmək imkanı qazanırlar.

Budəfəki toplantıda həm paytaxtda, həm də regionlarda yerləşən peşə təhsil mərkəzləri təmsil olunurlar. Qurulmuş çadırlarda qonaqlara peşə təhsil müəssisələrinin turizm, mədəniyyət, sənaye, kənd təsərrüfatı, İKT və ictimai iaşə istiqamətlərində təhsil alan tələbələrin əl işlərindən ibarət sərgilər təqdim olunur. Festival boyunca maarifləndirici dərslər keçiriləcək.

İlk olaraq tələbələrin yaradıcı fəaliyyəti sərgilənir. Əl işləri gənclərin peşələrinə olan marağını və ustalıq məharətlərini nümayiş etdirir. Festival çərçivəsində müxtəlif yarışlar da nəzərdə tutulur. Bu, ziyarətçilərə peşə təhsilinin praktik tərəflərini daha yaxından tanımaq imkanı verəcək. İştirakçılara müxtəlif hədiyyələrin verilməsi də festival proqramına daxildir.

Açılış mərsimində Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov peşə təhsilinin ölkənin iqtisadi və sosial-mədəni inkişafındakı strateji rolundan, gənclərin məşğulluğunun və peşə təhsilinə olan marağın artırılması istiqamətində görülən işlərdən söz açaraq dedi:



– Peşə təhsili gələcəyin istehsalat kadrlarının hazırlanmasında mühüm rol oynayır. Bu sahəyə göstərilən diqqət ölkənin iqtisadi inkişafı üçün vacib amildir. Biz çalışırıq ki, peşə təhsilinin əhatə dairəsini daha da genişləndirək. Bu il Cəlilabad və Qəbələ şəhərində də bu festivalı təşkil etdik. Son illərdə ölkəmizdə müasir peşə təhsil müəssisələri istifadəyə verilib. 2026-cı ilədək 10-dan çox yeni peşə öyrətmə ocağı acılacaq.

Bakıda, Cəlilabadda, Lənkəranda, Bərdədə, Quba və digər rayonlarda belə mərkəzlərin yaradılması nəzərdə tutulur. Tikilməkdə olan Füzuli Peşə Təhsil Mərkəzi ilə yanaşı, növbəti illərdə işğaldan azad edilmiş Şuşa, Zəngilan, Qubadlı, Ağdam və digər rayonlarda peşə təhsili şəbəkəsi qurulacaq. Bu, o deməkdir ki, inkişaf edən Azərbaycan gəncinin ölkənin hər yerində peşə seçməyə öyrənmək imkanı olacaq.

Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini Könül Həsənova isə qeyd etdi ki, belə aksiyalar gənclərin peşə seçimində təsirli rol oynayır, ölkəmizdə müasir peşə təhsili sisteminin yaradılmasına xidmət edir.

Sonra iştirakçılar parkda qurulmuş çadırlarda gənclərin əl işləri ilə tanış oldular. Festivalın gedişi göstərdi ki, gəncləri ölkə üçün gərəkli peşələri öyrənməyə təşviq etmək və onların peşəkar bacarıqlarını inkişaf etdirmək üçün belə tədbirlərin təşkili geniş imkanlar yaradır.

*C.BALABƏY*
*XQ*

## "SAVALAN" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il dekabrın 31-nə balans hesabatı

manatla

| AKTİVLƏR | Qalıq | |
|---|---|---|
| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
| Torpaq, tikili və avadanlıqlar | 571,078.82 | 432,640.00 |
| **Cəmi** | ***571,078.82*** | ***432,640.00*** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Ehtiyatlar | 232,911.69 | 232,911.69 |
| Qısamüddətli debitor borcları | 404,711.58 | 365,739.16 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 122,642.30 | 231,133.93 |
| Digər aktivlər | 628,890.09 | 519,027.01 |
| **Cəmi** | ***1,389,155.66*** | ***1,348,811.79*** |
| **CƏMİ AKTİVLƏR** | ***1,960,234.48*** | ***1,781,451.79*** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 2,416,824.00 | 2,416,824.00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -491,046.98 | -661,267.89 |
| **CƏMİ KAPİTAL** | ***1,925,777.02*** | ***1,755,556.11*** |
| **ÖHDƏLİKLƏR** | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 32 586,88 | |
| **Cəmi uzunmuüddətli** öhdəliklər | **32 586,88** | |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Vergilər və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1 870,58 | 25,241.71 |
| Qısamüddətli kreditor borcları | | 653.97 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | ***34,457.46*** | ***25,895.68*** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | ***1,960,234.48*** | ***1,781,451.79*** |

### MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 702 944,03 | 50 877,10 |
| Satışın maya dəyəri | - 466,050.41 | - 430,824.21 |
| **Ümumi mənfəət** | **236,893.62** | **- 379,947.11** |
| Daşınmaz əmlakın icarəsindən gəlirlər | | 562.792,05 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **236,893.62** | **182,844.94** |
| Gəlirdən çıxılan vergilər və yığımlar | - 24,117.48 | - 23,047.08 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **212,776.14** | **159,797.86** |
| Keçmiş illərin zərəri | | **- 981.79** |
| **Vergiyə cəlb olunan mənfəət** | 212,776.14 | **158,816.07** |
| Mənfəət vergisi | - 42,555.23 | - 31,763.21 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **170,220.91** | **127,052.86** |
| Səhmdarların payı | **0.18** | **0.13** |
| 1 (bir) səhmin əsas mənfəəti | **0.14** | **0.11** |

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı "SAVALAN" Açıq Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Şərti müsbət rəy**

Mən, "SAVALAN" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – şirkət) 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Məncə, hesabatımın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

# Ukrayna sərhəddə yeni hücuma keçəcəkmi?

**Rusiyanın Kursk vilayətinin sərhədyanı rayonlarında vəziyyət mürəkkəb olaraq qalır. Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, Ukraynanın ordu hissələrinin irəliləməsinin qarşısı alınıb və ərazinin geri qaytarılması istiqamətində addımlar atılır. Ukrayna mənbələri isə iddia edirlər ki, nəzarətə götürülən ərazilər getdikcə genişlənir. Kursk əməliyyatının nəticələri və Rusiya–Ukrayna müharibəsinə göstərəcəyi təsir barədə müzakirələrdə də fikirlər haçalanır.**



Kursk vilayətində Ukrayna Silahlı Qüvvələri ilə döyüşlər avqustun 6-dan davam edir. Bölgədə federal fövqəladə rejim qüvvədədir. Avqustun 12-nə olan məlumata görə, Ukrayna hərbçiləri 28 yaşayış məntəqəsini ələ keçiriblər. Rusiya hakimiyyət orqanları 2 min insanın taleyindən xəbərsiz olduğunu bildirir. Bölgədən 120 mindən çox insan təxliyə edilib. Həmin gün Rusiya Müdafiə Nazirliyi bölgəyə əlavə qoşunların göndərildiyini açıqlayıb. Rusiya mənbələrinin məlumatına görə, əraziyə hücumda Ukrayna Silahlı Qüvvələrinin 22-ci mexanikləşdirilmiş və 80-ci hava hücumu briqadaları iştirak edib.

Son məlumatlara görə, Rusiya Ukrayna ordu bölmələrini Kursk vilayətindən çıxarmaq üçün ehtiyat toplamaqda davam edir. "Axmat" xüsusi təyinatlılarının komandiri və Müdafiə Nazirliyinin hərbi-siyasi idarəsinin rəis müavini Apti Alaudinov bildirib ki, Kursk vilayətində vəziyyət Rusiya ordusunun nəzarəti altındadır. Onun sözlərinə görə, Rusiya ərazisinə daxil olan Ukrayna ordu hissələrinin blokadası başa çatır. TASS-a müsahibəsində A.Alaudinov iddia edib ki, "…düşmən həm texnika, həm də canlı qüvvə baxımından çox ağır itkilər verib".

Min kvadrat kilometr ərazidə nəzarəti ələ keçirən Ukrayna isə Sumı vilayətindəki Krasnopolski rayonunda qüvvələr və ehtiyat toplayır. Bu barədə Rusiya xüsusi xidmət orqanlarına yaxın "Teleqram" kanalları yazır. Malaya Rıbitsa və Miropolye kəndləri ərazisində böyük miqdarda ağır texnika toplayan Ukrayna qoşunlarının Kursk vilayətinin Sudjanski və Korenevski rayonlarından da daxil olacağı güman edilir. "Forbes" yazır ki, Ukrayna aviasiyası Kursk vilayətindəki döyüşlərə qoşulub. Nəşr qeyd edir ki, Ukrayna qoşunları cəbhə xəttindən bir neçə kilometr şimalda yerləşən Tetkinodakı Rusiya komandanlıq məntəqəsinə raket zərbəsi endirib. "Forbes" iddia edir ki, hərbi hava əməliyyatını bu yaxınlarda Ukraynaya təhvil verilmiş "F-16" təyyarəsi yox, "Su-27" həyata keçirib.

Kursk vilayətinin özündə və sərhədyanı ərazilərdə də aramsız ağır döyüşlər gedir. Bildirilir ki, Ukrayna Lqov və Rılsk şəhərlərinin sərhədlərinə çatmağa çalışır. Hərbi ekspertlərin sözlərinə görə, Rusiya E98 magistral yolunu saxlaya bilməsə, Rılsk yaşayış məntəqəsi Ukrayna tərəfinin nəzarətinə düşə bilər. Bundan əlavə, Belqorod, Rostov, Voronej və Oryol vilayətlərinə PUA hücumunun olduğu bildirilir.

Belqorod vilayətində də vəziyyət ağırdır. Burada da federal fövqəladə vəziyyətin elan olunacağı gözlənilir. Bəzi məlumatlara görə, ötən gün gecə saatlarında Ukrayna hərbçiləri Krasnoyaruzski rayonuna yenidən daxil olmağa cəhd göstərib. Vəziyyətin mürəkkəbliyini nəzərə alan Rusiya Baş Qərargahı cəbhənin digər hissələrində iştirak edən bir sıra bölmələri vilayətin ərazilərini mümkün işğaldan qorumaq üçün bölgəyə göndərməyi düşünür.

Bununla belə, son 24 saat ərzində Ukraynanın Kursk vilayətində daha iki kəndi ələ keçirməsi barədə məlumatlar yayılıb. Agentliklər rusiyalı hərbi müxbirlərə istinadən xəbər verirlər ki, bunlar Sudjanski rayonunun cənubundakı Plexovo və Spalnoe kəndləridir. Plexovonun tutulması çərşənbə axşamı kənddən çəkilmiş video ilə təsdiqlənib. Aktiv döyüşlər zonasının bir qədər genişlənməsi Korenevo kəndindən 15 kilometr şimal-şərqdə yerləşən Korenevski rayonunda baş verib. Toqquşmalar faktını NASA peykləri tərəfindən qeydə alınan yangın görüntüləri də təsdiq edir. Rayon mərkəzinin yaxınlığında da döyüşlər davam edir. Ukrayna Silahlı Qüvvələri Kurskun mərkəzi şəhəri olan Sudjuya nəzarəti davam etdirir.

***SE LAY***
***XQ***

**Maraq dünyamız**

# Bu Atlas o atlaslardan deyil

## *Afrikanın ən hündür dağı haqqında bilmədiklərimiz*



**Atlas qədim Yunan mifologiyasında titanlardan biridir. Rəvayətə görə, Titan İapetosun oğludur. Qeyri-adi gücə malik və özündənrazı qəhrəmandır. Bütün dənizlərin dibinə o, nəzarət edirmiş.**

Anatomiyada onurğa sütununun başını saxlayan boyun fəqərəsinə də atlas deyilir, konkret bir ölkənin, qitənin və ya dünyanın coğrafiyasını xəritələrlə göstərən kitaba da. Üstəlik, Azərbaycanda ən dəyərli ipək parçalardan biri də atlas adlanır. Ancaq ən böyük Atlas Afrika qitəsi boyu uzanan, 2500 kilometrlik dərələr, qayalıqlar, yaylalar və zirvələri özündə birləşdirən Atlas sıra dağlarıdır.

Bu dağlar haqqında coğrafiya dərsliklərindən bəzi faktları bilsək də, https://www.pahod.by/morocco saytında daha çox və maraqlı faktlarla tanış oluruq.

Məsələn, biz çoxumuz Atlas dağı haqqında yığcam da olsa bilirdik. Ancaq mən həmin dağ silsiləsinin bir hissəsi olan Uca Atlas dağı barədə heç nə bilmirdim. Elə bu yazı ilə birlikdə təqdim etdiyim fotoları da adını çəkdiyim saytdan seçmişəm.

Orada oxudum ki, Uca Atlas (ərəbcə Atlsas Əl-Kəbir) dağı Atlas sıra dağlarının tərkibindəki dağ zirvələrindən biridir. Şimali Afrikada, Mərakeş ərazisindəki bu dağ silsiləsi Atlantik okeanından Əlcəzair sərhədlərinədək –700 kilometr uzanır.

Bundan başqa, biz Afrika sözünü eşidəndə dərhal gözümüz önündə susuz səhralar, qum təpələri və dəvənin kölgəsində oturmuş qaradərili insanlar canlanır. Ancaq yuxarıda adını çəkdiyimiz saytda oxuyuruq ki, Uca Atlas dağ silsiləsi çoxsaylı çaylardan ibarət içməli su hövzəsini formalaşdırır. Hətta, yayda da qurumayan bir çox çaylar üzü şimala doğru axır və onların sahillərində çoxsaylı insanlar məskunlaşmışdır. Eyni adlı dərələrə axan Dades, Todqa və Draa çayları Atlasa xüsusi gözəllik bəxş edir.

Maraqlı faktlardan biri də odur ki, bu dağ silsiləsi iqlim regionlarının sərhədində yerləşir. Belə ki, insanlar burada iki fərqli iqlimlə üzləşirlər. Ətrafda Saxaranın təsirindən yaranan Aralıq dənizi iqlimi də hökmranlıq edir, yüksək dağ silsilələrinin özünəməxsus iqlimi də. Qış boyu ağ örtükdə olan Uca Atlas qış idman oyunlarını sevənlərin daha çox üz tutduğu ünvandır. Dağ silsiləsinin şimal yamaclarındakı qar may ayının sonlarınadək ərimir.

Qeyd edilir ki, Uca Atlasın şimal-qərb yamaclarındakı küləklərin yaratdığı "yağış kölgəsi" bu əraziyə daha çox yağıntının düşməsinə səbəb olur. Ona görə də bu yamaclar 1500 metrədək hündürlüyə qədər əbədiyaşıl zeytun meşələri ilə örtülmüşdür. Daha üç yüz metr yüksəklikdə isə daş palıdı, Hələb küknarı, Atlas kedri və digər ağaclar boy verirlər.

Yəni Afrika bizim təsəvvürümüzdəki nəfəs kəsən tozlu çöllərdən və sonu görünməyən səhralardan ibarət deyil. Allah bu "qara qitə"yə çoxsaylı gözəlliklər də bəxş etmişdir.

***İttifaq MİRZƏBƏYLİ***

**Yaşam fəlsəfəsi**

# Xoşbəxtlik oğruları



**İnsanların xoşbəxtlik anlayışına münasibətləri fərqlidir. "Xoşbəxtəm" deyənlərin əksəriyyəti bəzən özünü aldatdığının fərqində deyil. Bəziləri isə düşünür ki, xoşbəxtlik nisbi anlayışdır, insan daim xoşbəxt ola bilməz, sadəcə, həyatımızda xoşbəxt anlar, dəqiqələr olur, vəssalam. Psixoanalizin banisi Ziqmund Freyd yazırdı: "İnsanın xoşbəxt olması yaradılış planına daxil deyil".**

Norveçli araşdırmaçı Ranhil Banq Nes "Xoşbəxtlik haqqında kitab"ında yazır: "Xoşbəxtlik və narazılıq yoluxucudur. Narazılıq, pessimizm, kədər klassik xoşbəxtlik oğrularıdır". O, xoşbəxtliyi təbiətlə ünsiyyətdə görür. Təbiətlə vəhdətdə olan insan ondan güc alır, ruhən sağlam olur. Litvalı fəlsəfə doktoru Haim Şapira isə yazır ki, "xoşbəxtlik yolunda ən böyük maneə xoşbəxtlik axtarışının özüdür. Əgər kimsə xoşbəxtlik evini tiksəydi, şübhəsiz ki, onun ən böyük otağı gözləmə zalı olardı".

Bununla belə, xoşbəxtlik biz düşündüyümüz qədər əlçatmaz deyil. Xoşbəxtlik vadisinə aparan yollar müxtəlifdir. Bu yolların hər biri insanın düşüncəsindən keçir. Nə qədər paradoksal görünsə də, bəzən həyati əhəmiyyətli faciələr, itkilər insanın xoşbəxtliyi dərk etməsinə yardımçı olur.

Əli Kərim bu fikri mükəmməl şəkildə ifadə edib:

***Nə xoşbəxt imişəm bir zaman, Allah,***
***Xəbərim olmayıb bu səadətdən.***

Yunan filosofu Epikür xoşbəxtliyimizə mane olan iki cür əzabdan söz açır: fiziki və mənəvi. Fiziki əzab vücudun ziyan görməsi yolu ilə meydana çıxır, mənəvi əzab isə narahatlıq və qorxulardan ibarətdir. Dincliyi ağrılarımız kəsən zaman duyuruq və bu, bizi xoşbəxtliyə gedən yola aparır. Epikür bədəni və ruhu sükunətə çağırır. O, həzlərdən üz döndərmir, amma bizi ehtiyatlı olmağa səsləyir, çünki sonrakı əzab onların gətirdiyi xoşbəxtlikdən daha böyük ola bilər.

Hər şey insan beynində baş verir, bəzi psixoloqlar beyni daim məşq etməklə inkişaf etdirə biləcəyimiz serebral xoşbəxtlik əzələsi kimi təsvir edir. Əlbəttə, bu məşqlər iradəsi zəif insanlar üçün deyil. Məsələ burasındadır ki, bəzi insanlar illər keçdikcə genlərinə görə daha çox sevinc və xoşbəxtlik şirəsinə sahib olur. Bəzi insanlarda qəribə tendensiya müşahidə olunur, onlar evdə də, idman zalında da, işdə də, uşaq vaxtı da, yeniyetməlik və yaşlılıq dövründə də həmişə yüksək əhval-ruhiyyədədirlər, ətrafa xoş ovqat yayırlar. Onlar kreativlikləri ilə dünyanı rövnəqləndirirlər. Digər insanlar isə daha skeptik, bədbin təbiətə malik olurlar. Bu məsələdə genetika xüsusi rol oynayır.

Amma həyat eşqi yaşamın əsas məhvəri hesab edilir. Biz genləri heç də insan taleyi ilə eyniləşdirə bilmərik. Xoşbəxtlik bizim həyatımızın qaçılmaz tərkib hissəsidir. Ürək sındıran çöküşlər yaşaya bilərik, amma heç vaxt xoşbəxtliyi duyub yaşamaq bacarığını itirmərik.

İnsanı xoşbəxt olmağa qoymayan bitib-tükənmək bilməyən arzularıdır. Əksər hallarda mümkünsüz görünən arzuları. İstəklər insanla xoşbəxtlik arasında çəpər hörür. Şotland ədibi Robert Stivenson isə yazır ki, "biz heç bir arzumuza xoşbəxtlik arzumuz qədər laqeyd yanaşmırıq". Bizi dərdə salan, canımızı sıxan şey hadisələr deyil, o hadisələrə verdiyimiz məna, o hadisələri necə qiymətləndirməyimizdir.

Sadəcə, hadisələrə baxış tərzimizi dəyişməliyik. Yumor hissi xilasedici kəmər kimidir. Təsirli bir dərman içməzdən əvvəl necə istifadə ediləcəyi, təsiri, riskləri, faydaları öyrənilməlidir. Yumor da təsirli bir dərmandır və xoşbəxtlik resepti yazılarsa, orada mütləq yumor da olmalıdır. Yumorun əsas mənbəyi kimi tanınan lətifələr toplumun mədəniyyətini əks etdirir. Optimist insanlar lətifə danışmağı sevirlər. Yumorun vacib elementi olan lətifələr stress peyvəndidir. Beləcə, xoşbəxtlik oğrularını zərərsizləşdirmək mümkündür.

Həyatın gözəlliklərini görmək üçün sadəcə, bu gözəlliklərdən zövq almağı bacarmaq lazımdır. Buludsuz səmaya baxıb köks dolusu nəfəs dərmək, göylərin ənginliyinə heyranlıqla baxmaq bəzən insana inanılmaz dərəcədə xoşbəxtlik hissi aşılayır. Üzümüzə toxunan külək, təzə çörəyin ətri, yağışın qoxusu ruhumuzu oxşayır. Dünyaya uşaq heyrətiylə baxmaq doğrudan da xoşbəxtlikdir.

Sam Mendesin rejissorluğu ilə çəkilmiş "Amerikansayağı gözəllik" filmində maraqlı bir səhnə var. Filmin qəhrəmanı hər şeydə inanılmaz gözəlliklər görür. Hətta küləklə sovrulan boş plastik torba da ona gözəl görünür.

İngilis şairi Uilyam Bleykin misralarını xatırlayıram:

***Bu dünyanı bir qum dənəsində,***
***cənnəti bir yabanı güldə gör.***
***Sonsuzluğu ovcunun içində,***
***əbədiyyəti isə bir saatın içində saxla.***

Səhər yuxudan oyanınca Günəşi pəncərədə görmək, sübh mehini ciyərlərinə çəkmək səadət deyilmi?!

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 173 (30577) 15 avqust 2024-cü il, cümə axşamı










# Fantastik oyun, böyük hesab, misilsiz qələbə

## “Qarabağ” “Ludoqorets”i 7-2 hesabı ilə darmadağın etdi

**Ağdamın “Qarabağ” klubunun bir həftə əvvəl doğma meydanda 1:2 hesablı məğlubiyyəti, buna qədər Avropa futbol turnirlərində Azərbaycanı şərəflə təmsil edən Qurban Qurbanovun komandasının azarkeşlərini də, futbolsevərləri də, elə sadə Azərbaycan vətəndaşlarını da çox pərişan etmişdi. Amma həqiqi “qarabağ”çıların qəlbində cavab matçında ağdamlıların bu məğlubiyyətinin əvəzini çıxacağına inam itməmişdi. Bu inam və ümidlə də Azərbaycan azarkeşləri avqustun 13-də Bakı vaxtı ilə gecə saat 22:00-da Bolqarıstanın Razqrad şəhərinin “Xyuvefarma Arena” stadionunda baş tutacaq cavab qarşılaşmasını böyük həyəcanla gözləyirdilər.**

Proqnozlar müxtəlif idi. Amma fanatlar birmənalı olaraq “Qarabağ”ın növbəti mərhələyə adlayacağını və “Ludoqoretsi”i Bakıdakı qələbəsinə peşiman edəcəklərini bildirməkdən, hətta öz aralarında mərcləşməkdən belə çəkinmirdilər. Bir çoxları isə doğma meydan amilini əsas tutaraq “Qarabağ”ın bu istəyi reallaşdırmasının çox çətin olacağını deyir və hətta bunun mümkün olmayacağında israr edirdilər. Ürəklər isə başqa istəkdə idi.

"Ludoqorets"lə matçda evdə uğursuzluqla üzləşən "Qarabağ" növbəti mərhələyə adlamaq üçün mütləq səfərdə iki top fərqi ilə qalib gəlməli idi. Qurban Qurbanovun yetirmələri bunu yaxşı başa düşdüklərinə görə də baş hakimin start fiti səslənən kimi hücuma başladılar. İlk dəqiqələrdən nümayiş etdirdikləri əzmkarlıq “Qarabağ” komandasına 7-ci dəqiqədə istəyini reallaşdırmaq yolunda ilk addımı atmaq üçün fürsət verdi. Rəqib komandanın müdafiəçisi Olivier Verdon mərkəz dairənin yaxınlığında komanda yoldaşından aldığı ötürmədən sonra topu ram etməyə fürsət tapmamış “Qarabağ”ın hücumçusu Juninio özünü yetirərək topu ələ keçirdi və rəqib qapısına doğru şığıdı. Qapıçı ilə təkbətək qalan Juninio inamla sağ küncə zərbə endirdi – 0:1. Bu, sanki “Qarabağ” klubunun bütün komandasına qələbə üçün mübarizəyə böyük ruh verdi.

Bundan 5 dəqiqə sonra hakim “Qarabağ”ı cəzalandırıb, ev sahiblərinin xeyrinə cərimə zərbəsi təyin etdi. Rəqibin ən fəal oyunçularından olan Son standart vəziyyətdən cərimə meydançasının sol küncünə hava ötürməsi etdi. Yakub Piotrovski başla topu qapıçı meydançasının mərkəzinə doğru yönəltdi. Kvadvo Dua başla topu qapıya vura bilmədi. Sağ küncə gedən topu Kevin Medina başla uzaqlaşdırmağa çalışsa da, buna nail ola bilmədi və rəqib oyunçu yenidən başla topa zərbə endirdi. Top dirəyə dəyib yenidən rəqib oyunçu Duanın qarşısına yüksəldi. Amma bu dəfə “Ludoqorets”in oyunçusu istədiyinə nail oldu və topu tora göndərdi – 1:1.

Bundan 10 dəqiqə sonra "Qarabağ"ın qapısına 11 metrlik cərimə zərbəsi təyin olundu. “Qarabağ”ın qapıçısı Fabian Buntiç Ruan Sekonun qapıya zərbə endirməsinə mane olmaq istəyərkən yumruğunu rəqibin üzünə vurdu. Hakim həmin anın təkrarına baxdı və sonda 11 metrlik nöqtəni göstərdi. Dua bu nöqtədən də qapıya inamla zərbə endirdi. Qapıçı Buntiç Duanın dubl etməsinə və onların hesabda 2:1 irəli çıxmasına mane ola bilmədi. Amma bu hesab “Qarabağ” futbolçularının əzmini qıra bilmədi.

Oyunun 44-cü dəqiqəsində Abdulla Zubir sol cinahdan cərimə meydançasına




daxil oldu və sonra topu cərimə meydançasının mərkəzinə şığıyan Yassin Benziaya ötürdü. Rəqib oyunçu Duarte “Qarabağ”ın hücumçusunun qarşsını almaq istəyərkən Benziaya qarşı kobud oynadı. Baş hakim “Ludoqorets”in oyunçusunun Benziaya qarşı bu kobud oyununu VAR-a baxmadan belə 11 metrlik cərimə zərbəsi kimi qiymətləndirərək bu dəfə razqradlıların qapısına penalti təyin etdi. Benzia 11 metrlik nöqtəyə yaxınlaşıb inamla qapı tirinin altından sol küncə zərbə endirdi. Qapıçı zərbənin istiqamətini təxmin etsə də, komandasını xilas edə bilmədi – 2:2.

Lakin bu birinci hissədə vurulan son qol olmadı. Hakim bu hissəyə 6 dəqiqə əlavə etdi. Əlavə vaxtın bitməsinə 1 dəqiqə qalmış – 45+5-ci dəqiqədə Zubir və Bəhlul Mustafazadə sol cinahda əla oyun nümayiş etdirib, rəqibin cərimə meydançasında qarışıqlıq yaratdılar. Bəhlul rəqibin cərimə meydançasının ön xəttindən cərimə meydançasının mərkəzinə ötürmə etdi, Benzia topu cərimə meydançasının mərkəzinə şığıyan Patrik Andradeyə ötürdü. Andrade də, öz növbəsində, topu əla ram edərək onu qapıçının sağ istiqamətindən, dirəyin bir neçə santimetrliyindən tora göndərdi – 2:3.

“Qarabağ” ikinci hissədə oyunu öz xeyrinə başa vurub növbəti mərhələyə vəsiqəni təmin edə bilərdi. Lakin futbolçularımız son məqamda dəqiq oynayıb real vəziyyətləri qola çevirə bilmədilər. Komandamız bir neçə qol vəziyyəti yarada bildi. Belə ki, 48-ci dəqiqədə “Qarabağ”ın sağ kənar müdafiəçisi Mateus Silva Andradedən əla ötürmə alıb sağ kənardan qapıçı ilə təkbətək çıxdı. Lakin Silvanın vurduğu topu rəqib müdafiəçi sürüşmə fəndi ilə zərərsizləşdirə bildi. Bundan sonra 78-ci dəqiqədə meydanın sağ tərəfində cərimə meydançasına daxil olan Zubir rəqib müdafiəçi Duarteni dolaşdırıb qapının uzaq küncünə zərbə vurdu. Lakin qapı çatı “Ludoqorets”i əsas vaxtda məğlubiyyətdən xilas etdi. İkinci hissəyə əlavə edilmiş vaxtın 90+1-ci dəqiqəsində də Benzia dubla yaxın oldu. Lakin bu dəfə qapıçı “Ludoqorets”i xilas etdi. Bu zərbələrdən hər hansı biri qol olsa, çox yəqin “Ludoqorets” doğma meydanda azarkeşləri qarşısında əlavə vaxtda aldığı böyük hesablı acı məğlubiyyətdən canını qurtarmış olardı. Amma tale və əzmkar “Qarabağ” komandası ona başqa qismət yazdı.

Əsas vaxtda iki oyunun nəticəsinə görə ümumi hesab bərabər olduğundan




matçın taleyi əlavə vaxtda müəyyənləşməli oldu. 93-cü dəqiqədə – ekstrataymın 3-cü dəqiqəsində sol cinahdan cərimə meydançasına daxil olan Zubir iki rəqibi özünə çəkərək bir qədər geriyə, cərimə meydançasına daxil olan Toral Bayramova ötürmə etdi. Toralın güclü zərbəsindən sonra top qapı tirinin altından tora qovuşdu – 2:4. Qapıçı bu zərbənin qarşısını almaqda aciz idi.

109-cu dəqiqədə komandamız növbəti qolla oyuna nöqtə qoyub qələbəni təmin etməyə yaxın oldu. Lakin bu dəfə kapitanımız Abdulla Zubirdən cərimə meydançasında əla ötürmə alan oyunun əsas qəhrəmanlarından biri Benzianın güclü zərbəsinin qarşısını rəqib müdafiəçi aldı. Bundan 1 dəqiqə keçməmiş – 110-cu dəqiqədə “Ludoqorets” yenidən “Qarabağa” əks-hücum imkanı verdi. Redon Cica komanda yoldaşlarından əla ötürmə alıb sağ cinahdan rəqibin cərimə meydançasına şığıdı və qapıçı ilə təkbətək qalıb zərbə endirdi. Məsafə qısa olduğundan qapıçı zərbəni dəf etdi. Lakin top yenidən Cicaya düşdü. Alban oyunçu bu dəfə rəqibə güzəştə getmədi və sağ küncdən topu tora göndərdi– qooooolll! 2:5.

Bu hesabdan sonra düşünmək olardı ki, “Qarabağ” istədiyinə nail olduğu üçün müdafiəyə keçib qələbə hesabını qoruyacaq. Lakin belə olmadı. Rəqib nə baş verdiyini dərk etməyə macal tapmamış – oyunun 112-ci dəqiqəsində Nəriman Axundzadə meydanın sağ cinahı ilə sürətlə cərimə meydançasına daxil oldu və bir neçə rəqibi özünə tərəf çəkərək, qapı xəttinin yaxın küncünə şığıyan komanda yoldaşı Patrik Andradeyə ötürmə etdi. Patrik bu hədiyyəni qola çevirməyə bilməzdi və bir toxunuşla topu qapı tirinin altına göndərdi. QOOOLLL – 2:6. Ekran qarşısında “Qarabağ”ın bu fantastik oynunu seyr edən Azərbaycan azarkeşlərinin çılğın hayqırtılarını təsəvvür etməmək olardımı?! Amma bu da son olmadı. Sanki “Qarabağ” komandası öz baş məşqçisi Qurban Qurbanov və azarkeşləri qarşısında ilk oyundakı “günahlarını” yuyurmuşlar kimi dayanmaq istəmir və qol ardınca qol vurmaq istəyirdilər. Komandada yorğunluğun əlamətləri belə görünmürdü.

Vaxtın bitməsinə 2 dəqiqə qalmış Julio Romao rəqibin cərimə meydançasından xeyli uzaqdan qapının sol küncünə güclü zərbə endirdi. Qapıçı zərbəni qaytarmaq məcburiyyətində qaldı və bu qurtarışdan sonra top Benzianın qarşısına düşdü. Benzia topu ram etmədən güclü zərbə ilə tora göndərdi – 2:7. Matç elə bu hesabla da başa çatdı. “Qarabağ” “Ludoqorets”i darmadağın etməklə növbəti mərhələyə vəsiqəni təmin edərək bu mübarizədən üzüağ çıxdı.

***İlqar RÜSTƏMOV***
***XQ***



# Abşeronda külək, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 15-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən, yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyisəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 26-30° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 26-31°, dağlarda gecə 11-16°, gündüz 17-19° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

# IDEA baxımsız atı nəzarətə götürdü

**Baxımsız halda qalmış və ayaqları zədələnmiş fayton atı Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın göstərişi ilə müvafiq qayğı tədbirləri üçün reabilitasiyaya cəlb olunub.**

Qeyd edək ki, at xüsusi nəqliyyat vasitəsilə IDEA Heyvanlara Qayğı Mərkəzinə gətirilib, ilkin baytarlıq müayinəsindən keçirilib və müalicəsinə başlanılıb. Mərkəzdə onun tam sağalması üçün zəruri baytarlıq tədbirləri davam etdiriləcək.

Xatırladaq ki, son günlərdə sosial şəbəkələrdə Qız qalası yaxınlığından “Azneft” meydanı istiqamətində turist daşımaq üçün istifadə edilən fayton atının baxımsız qalması ilə bağlı məlumat yayılmışdı.

**XQ**




BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3616
SİFARİŞ 1767
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00